XALQ DÖVLƏT ÜÇÜN YOX, DÖVLƏT XALQ ÜÇÜN OLMALIDIR...



# BİNƏQƏDİ

№17 (154) | 14 oktyabr 2016

İCTİMAİ-SİYASİ QƏZET

Qiymәti: 40 qәpik

Müstəqil Azərbaycan – ulu öndər Heydər Əliyevin müəllifi olduğu əzəmətli abidə

SƏH. 2

# Azərbaycan MDB məkanında öz liderliyini qoruyub saxlayır

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib. Dövlətimizin başçısı tədbirdə giriş nitqi ilə çıxış edib.

Prezident İlham Əliyev hazırda qlobal iqtisadiyyatda baş verən mənfi tendensiyaların davam etdiyini, 2016-cı ilin dünya iqtisadiyyatı üçün çox ağır il olduğunu bildirib: «Dünya iqtisadiyyatında böhranlı vəziyyət davam edir. Bu böhrandan həm təbii resurslarla zəngin olan ölkələr, eyni zamanda, istehlakçı ölkələr əziyyət çəkir. Təbii ki, neftin qiymətinin kəskin şəkildə düşməsi neftlə zəngin olan ölkələrin iqtisadiyyatına mənfi təsir göstərmişdir. Eyni zamanda, neft ölkələrində öz kontraktlarını icra edən digər ölkələr də əziyyət çəkirlər. Çünki o ölkələrin şirkətləri kontraktları daha az həcmdə icra edir və beləliklə, bu böhran onlara da mənfi təsir göstərir».

Dövlətimizin başçısı dünyada siyasi və hərbi böhranların yaşandığını, müxtəlif bölgələrdə qanlı toqquşmalar, müharibələrin alovlandığını, risk və təhdidlərin artdığını, Avropada miqrant böhranının dərinləşdiyini xatırladaraq qeyd edib ki, bu cür tendensiyalar sivilizasiyalararası münasibətlərə çox böyük zərbə vurur. Baş verənlərə rəğmən, Azərbaycan neçə ildir ki, mədəniyyətlərarası dialoqu gücləndirir və bu, dünyada böyük rəğbət qazanıb: «Bizim üstünlüyümüz ondan ibarətdir ki, həmişə öz yolumuzla gedirik, öz siyasətimizi aparırıq, heç kimin sözü ilə oturub-durmuruq. Ona görə də bu gün Azərbaycanda inkişaf və sabitlik var. Bəzi insanlar indi də belə deməkdə davam edirlər ki, biz harasa inteqrasiya etməliyik. Bəlkə özləri də dərk etmirlər ki, bu, nə deməkdir. Biz hara lazımdırsa, artıq ora inteqrasiya etmişik. Bu gün Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarda çox böyük rol oynayır və böyük rəğbət qazanıbdır. Ancaq biz hara inteqrasiya etməliyik? Bəziləri deyirlər ki, kiminsə xoşuna gəlmək üçün, yaxud da ki, donor pullarını əsaslandırmaq üçün biz Avropaya inteqrasiya etməliyik. Sual olunur, biz hansı Avropaya inteqrasiya etməliyik?

Bax, bugünkü Avropa göz qabağındadır. Özləri etiraf edirlər, Avropa İttifaqının ən böyük rəhbərləri etiraf edirlər ki, indi Avropa məkanında dərin böhran yaşanır. Biz oramı inteqrasiya etməliyik, böhranamı inteqrasiya etməliyik?! «Müsəlmanlara stop» deyənlərəmi inteqrasiya etməliyik?! Biz müsəlman qaçqınlara ikili standartlar tətbiq edənlərəmi inteqrasiya etməliyik?! Biz müsəlmanları qəfəsdə saxlayanlaramı inteqrasiya etməliyik?! Bax, sual bundan ibarətdir və biz bunların hamısını deyirik. Ona görə də bəzi hallarda bizə qarşı təzyiqlər də olur, kampaniyalar da aparılır, müxtəlif iftiralar da uydurulur. Bax, biz bu reallığı bilməliyik».

Azərbaycan Prezidenti bildirib ki, biz öz yolumuzla gedirik və Avropa ilə çox sıx əlaqələr qura bilmişik: «Avropa İttifaqına üzv olan 9 ölkə ilə bizim strateji tərəfdaşlıq haqqında sənədlərimiz var. Biz 15 ildir ki, Avropa Şurasında çalışırıq və orada da bizim mövqelərimiz gündən-günə möhkəmlənir. Biz hətta o təşkilatda da dönüş yarada bilmişik. Avropa Şurası Parlament Assambleyasındakı deputatların əksəriyyəti artıq görür ki, bizə qarşı ədalətsizliklər, ikili standartlar olub və bu gün vəziyyət tam normaldır. Ona görə də əməkdaşlıqla bağlı bizim heç bir problemimiz yoxdur. Biz bu əməkdaşlığa meyilliyik».



Dövlətimizin başçısı Azərbaycanda siyasi və iqtisadi islahatların davam etdirilməsinə diqqət çəkərək, ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan referendumun keçirildiyini xatırladıb: «Referendum demokratik, ədalətli, tam şəffaf şəkildə keçirilmişdir. Yüzdən çox xarici müşahidəçi referendumu izləmişdir. Bir neçə beynəlxalq rəy sorğusu agentliyi exit-poll keçirmişlər. Exit-pollun nəticələri və rəsmi nəticələr üst-üstə düşür. Bu da təbiidir. Çünki referendum tam şəffaf, ədalətli keçirildi. Mənə verilən son məlumata görə, Mərkəzi Seçki Komissiyasına təqribən cəmi 20, ya ondan bir qədər çox şikayət daxil olmuşdur. Bizim beş mindən çox seçki məntəqəmiz var. Cəmi 20, bəlkə də bir qədər çox şikayət olub. Bu, nəyi göstərir? Onu göstərir ki, insanlar, Azərbaycan xalqı referendumun nəticələrini dəstəkləyir. Onların iradəsi referendumun nəticələrində öz əksini tapmışdır».

İqtisadi sahədə vəziyyəti qiymətləndirən dövlətimizin başçısı bildirib ki, neftin qiymətinin düşməsi nəticəsində dövlət investisiyaları azaldılıb, tikinti sektoruna az sərmayə qoyulub və bu, müəyyən qədər iqtisadi tənəzzülə gətirib çıxarıb: «Ancaq sevindirici hal ondan ibarətdir ki, bizim sənayemiz artır. Sənaye potensialımız baxmayaraq ki, az artır - 0,2 faiz, amma artır. İqtisadiyyatımızın, sənayemizin qeyri-neft sektoru artır, orada artım 3,6 faizdir, bu, yaxşıdır. Kənd təsərrüfatı 2,4 faiz artıbdır və əminəm ki, daha da artacaq. Çünki kənd təsərrüfatı sahəsində apardığımız işlər yaxın gələcəkdə daha da böyük həcmdə nəticə verəcəkdir. Sosial layihələr icra edilib. İyirmi doqquz məktəb tikilib, 485 məktəbdə təmir işləri aparılıb, 33 səhiyyə obyekti inşa olunub, təmir edilib. Böyük yol layihələri, kənd yolları layihələri icra edilib. Bir neçə şəhərimizdə içməli su layihələri başa çatıb».

Dövlətimizin başçısı aparılan islahatların dünyanın aparıcı iqtisadi mərkəzləri tərəfindən də yüksək qiymətləndirildiyini, Davos Dünya İqtisadi Forumunun Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə dünyada 37-ci yerə layiq gördüyünü xatırladıb. Qeyd edib ki, MDB məkanında biz həmişə olduğu kimi, birinciyik və bu liderliyi saxlayırıq.

2017-ci ilin dövlət büdcəsi barədə fikirlərini bildirən Azərbaycan Prezidenti büdcədə bütün sosial proqramların öz əksini tapmalı olduğunu vurğulayıb: «2017-ci ildə də büdcəmiz sosialyönümlü olmalıdır və əlbəttə ki, investisiyalar üçün də kifayət qədər vəsait nəzərdə tutulmalıdır. Biz əvvəlki illərdə dövlət investisiyalarına daha çox üstünlük verirdik. Bu da təbiidir, çünki biz bir çox layihələri, xüsusilə infrastruktur layihələrini icra etməli idik. Əgər biz onları icra etməsəydik, bu gün, ümumiyyətlə, inkişafdan söhbət belə gedə bilməzdi. Nə kənd təsərrüfatı, nə turizm, nə digər sahələr inkişaf edə bilməzdi. Ona görə, dövlət investisiya qoyuluşu xüsusi əhəmiyyət daşıyırdı və biz son illər ərzində bu layihələrin bir çoxunu artıq icra etmişik. Təbii ki, 2017-ci ilin dövlət investisiya proqramı indi hazırlanır və yaxın vaxtlarda mənə təqdim ediləcək. Ancaq biz özəl sektorun investisiyalarını daha da böyük həcmdə cəlb etməliyik».

Prezident İlham Əliyev biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atıldığını, 2017-ci ildə bu istiqamətdə mühüm işlərin görülməsi, dövlət investisiya layihələrinin icra olunması, inflyasiyanın birrəqəmli həddə saxlanması və süni qiymət artımına yol verilməməsi üçün ciddi tədbirlərin görülməsini tapşırıb. Bank sektorunda islahatların aparılmasının, konsolidasiya siyasətinin davam etdirilməsinin zəruriliyinə toxunan dövlətimizin başçısı ölkəmizin sənaye potensialının artırılması, bölgələrdə sənaye zonalarının yaradılması prosesinin sürətləndirilməsi və s. istiqamətlərdə də məqsədyönlü tədbirlərin davam etdiriləcəyini bəyan edib.

Azərbaycan Prezidenti daxili bazarın qorunması üçün tədbirlər görüldüyünü, xaricdən gətirilən bəzi mallara rüsumların artırıldığını, yerli istehsalın həcminin çoxaldılması sahəsində əlavə işlərin görülməsinin vacibliyinə toxunub. Kənd təsərrüfatının inkişafı üçün dövlət dəstəyinin artırılacağını və subsidiyaların verilməsində ciddi addımlar atıldığını, «Made in Azerbaijan» brendinin yaradıldığını, sahibkarlığın inkişafına maliyyə dəstəyi göstəriləcəyini qeyd edib. Ailə biznesinə «ASAN dəstək» sistemini yaradıldığını deyən dövlətimizin başçısı «ASAN xidmət» mərkəzlərinin sayının artırılacağını, «ASAN viza» sisteminə keçidin təmin olunduğunu vurğulayıb.

TƏDBIR SƏH. 3



Binəqədi rayonunda hesabat yığıncağı keçirilib

CƏMİYYƏT SƏH. 5



Şərəfli peşə sahibləri bayramlarını qeyd ediblər

GƏNCLİK SƏH. 7



Gənclər arasında multikultural dəyərlər təbliğ olunur

# İstanbulda 23-cü Dünya Enerji Konqresi keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev Konqresdə iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda keçirilən 23-cü Dünya Enerji Konqresində iştirak etmək üçün oktyabrın 9-da Türkiyə Respublikasına işgüzar səfərə gəlib. Tədbirdən əvvəl dövlətimizin başçısı İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü olub. Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib.

Səfər çərçivəsində Prezident İlham Əliyev BP şirkətinin baş icraçı direktoru Robert Dadli və Venesuela Respublikasının Prezidenti Nikolas Maduro ilə də görüşüb.

Oktyabrın 10-da İstanbulda 23-cü Dünya Enerji Konqresi işə başlayıb. «Yeni üfüqlərə qucaq açmaq» devizi altında keçirilən Konqresdə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Venesuela Prezidenti Nikolas Maduro Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xüsusi dəvəti əsasında iştirak ediblər.




Konqres iştirakçıları əvvəlcə iyulun 15-də Türkiyədə dövlət çevrilişinə cəhd zamanı şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Konqresin açılışında Dünya Enerji Şurasının həmsədri Yanqhun Deyvid Kim çıxış edərək, bu mötəbər tədbirin əhəmiyyətini vurğulayıb.

Türkiyənin Baş naziri Binəli Yıldırım Konqres çərçivəsində keçiriləcək 60-dan çox sessiyada enerji sahəsində aktual məsələlərə dair səmərəli müzakirələrin aparılacağını bildirib.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev Dünya Enerji Konqresinin Türkiyədə keçirilməsini əlamətdar hadisə adlandırıb və bunu qardaş ölkənin dünya enerji siyasətindəki rolunun göstəricisi kimi qiymətləndirib.

Azərbaycan Prezidenti Türkiyə ilə Azərbaycanın ortaq enerji layihələrindən bəhs edərək bildirib ki, bu layihələr dünya üçün böyük əhəmiyyət daşıyır: «İlk dəfə olaraq tarixdə biz Xəzər dənizini Aralıq dənizi ilə bağladıq və bu gün Azərbaycan nefti həm Türkiyəyə, Türkiyə ərazisindən isə dünya bazarlarına ixrac edilir. Bu, bizə çox böyük xeyir gətirir».

Dövlətimizin başçısı bildirib ki, «Cənub» qaz dəhlizi bu gün dünya miqyasında ən böyük enerji layihələrindən biridir: «Cənub» qaz dəhlizinin sərmayə tutumu 45 milyard dollardır və dörd önəmli layihədən ibarətdir. Birincisi, TANAP-dır ki, bizim qazı Gürcüstan-Türkiyə-Yunanıstan sərhədinə çatdırır. Digəri Cənubi Qafqaz qaz kəməridir ki, Azərbaycan qazını Türkiyə sərhədinə gətirir. Üçüncüsü, Trans-Adriatik kəməridir və nəhayət dördüncüsü, «Şahdəniz» qaz yatağının ikinci fazasının işlənməsidir».

Tədbirdə çıxış edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dünya enerji siyasətinin inkişafına xidmət edən bu Konqresin uğurlu olacağına əminliyini bildirib. O, ölkəsinin Türkiyə və Çinlə enerji sahəsində əlaqələrin inkişafına xidmət edəcək layihələrindən də danışıb.

Konqresdə çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyənin Yaxın Şərq və Xəzər hövzəsi də daxil olmaqla dünya enerji qaynaqlarının üçdə ikisinin olduğu bölgədə yerləşdiyini bildirərək həmin ehtiyatların dünya bazarına çatdırılmasında ölkəsinin mühüm rol oynadığını söyləyib: «Əsasən Azərbaycan nefti olmaqla, Xəzər neftinin Ceyhan limanına nəqlini təmin edən Bakı-Tbilisi-Ceyhan neft kəmərini də həyata keçirmişik. Həmçinin Azərbaycanla birlikdə reallaşdırdığımız «Cənub» qaz dəhlizinin əsasını təşkil edən TANAP - Trans-Anadolu qaz boru kəməri layihəsini inşa edirik».

Dünya Enerji Konqresi öz işini müxtəlif mövzular üzrə sessiyalarda davam etdirir.

# Müstəqil Azərbaycan – ulu öndər Heydər Əliyevin müəllifi olduğu əzəmətli abidə

**Azərbaycanın bugünkü inkişaf yolunun əsas istiqamətlərindən danışarkən birmənalı şəkildə qeyd etmək lazımdır ki, bu inkişaf ilk növbədə xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi xəttin ardıcıl davam etdirilməsinin nəticəsidir. Heydər Əliyev bütün həyatı boyu Vətəninin, xalqının gələcəyini düşünmüş, Azərbaycanın müstəqilliyinin əbədiliyinə bütün varlığı ilə inanaraq bu dövlətin ideya əsaslarını, strateji inkişaf istiqamətlərini konkret olaraq müəyyənləşdirmişdir.**



Bu gün keçmişə nəzər salarkən və Heydər Əliyevin hələ respublikamız keçmiş Sovet İttifaqının tərkibində olduğu zaman Azərbaycan üçün gördüyü işlərə nəzər salarkən bu böyük insanın ruhu qarşısında baş əyməyə bilmirsən. Ulu öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi 15 ilə yaxın dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar olkədən inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq olmuş, adı heç yerdə çəkilməyən Azərbaycanı qısa müddətdə sovet respublikaları arasında ön sıralara çıxarmağa, sürətlə inkişaf edən bir respublikaya çevirməyə nail olmuşdu.





Heydər Əliyev çox gözəl bilirdi ki, respublikanın inkişafı ilk növbədə onun iqtisadi qüdrətini artıran enerji təminatının yaxşılaşdırılmasından, sənaye potensialının yaradılmasından, elm və mədəniyyətinin, ən başlıcası, insan potensialının inkişaf etdirilməsindən asılıdır. İttifaq rəhbərliyinin göstərdiyi maneələrə baxmayaraq o, iradəsindən dönmür, bütün vasitələrlə bu maneələri aradan qaldırmağa çalışır və bunu bacarırdı. Hazırda Azərbaycanın 2020-ci ilədək inkişaf konsepsiyası ətrafında gedən müzakirələr, bu konsepsiyada müəyyən olunan əsas hədəflər də Heydər Əliyev ideyalarından güc alır. Ulu öndərin dövlət başçısı İlham Əliyev tərəfindən müasir reallıqlara söykənməklə daha da zənginləşdirilən ideyaları, onun strategiyası, onun arzuları artıq həqiqətə çevrilmişdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkənin enerji siyasəti Heydər Əliyevin neft strategiyası əsasında qurulmuşdur və bu strategiya dünyanın müasir tələblərinə uyğunlaşdırılmış, zənginləşdirilmişdir.

Ümummilli liderimizin ölməz ideyaları təkcə enerji siyasətimizi deyil, bütövlükdə Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirmişdir və həmin strategiyanın ardıcıl həyata keçirilməsi bu gün də ölkəmizi sürətlə irəli aparır. Vaxtilə onun cəsarət və uzaqgörənliklə həyata keçirdiyi islahatlar olmasaydı, Azərbaycanın indiki inkişaf səviyyəsi ancaq xəyal olaraq qala bilərdi. Heydər Əliyev Azərbaycanın 1993-cü ildən sonra əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirərək, bu dövrdə cəmiyyətdə aparılmış islahatların məqsədini və mahiyyətini belə izah edirdi: “Bizim əsas məqsədimiz ondan ibarət olubdur ki, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirək və inkişaf etdirək. Biz bunu etmişik və artıq Azərbaycanda dövlət müstəqilliyi sarsılmazdır, dönməzdir və əbədidir”. Heydər Əliyev çox gözəl bilirdi ki, yeni Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsi, keçmiş sosializm sistemi münasibətlərinin yeni münasibətlərlə əvəz edilməsi, müasir dünyanın tələbləri ilə ayaqlaşa bilən bir dövlətin qurulması bütün sahələrdə dərin islahatların aparılmasından, insanların şüurunu tədricən dəyişməkdən asılıdır. Odur ki, ölkənin müharibə şəraitində olmasına baxmayaraq böyük risk və qətiyyətlə həmin islahatların konsepsiyasını hazırlayıb ardıcıl həyata keçirirdi. Onların müsbət nəticələri barədə isə xalq qarşısında belə hesabat verirdi: “Bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda yeni bir sistem yaranıbdır. Dünya standartlarına yaxınlaşan, dünya standartlarına çatmağa çalışan hüquqi, demokratik, dünyəvi dövlət yaranıbdır. Budur bizim nailiyyətimiz... Bu, bütün sahələrdə özünü göstərir. Bizim Konstitusiyamız, qəbul etdiyimiz qanunlar, onların icrası, cəmiyyətə bütün sahələrdə verilən azadlıq, sərbəstlik - bunlar hamısı bizim dövlətçilik anlayışımızın tərkib hissələridir”.

Heydər Əliyev fenomeninin əsas xüsusiyyətlərindən biri də ondan ibarət idi ki, o, başladığı işlərin nəticəsini əvvəlcədən görür və hesablaya bilirdi. Buna görə də cəsarətlə elan edirdi ki, Azərbaycan müstəqilliyini elan edəndən sonra bəyan etdiyi demokratiya, bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat, dünya birliyinə, dünya iqtisadiyyatına inteqrasiya prinsiplərini həyata keçirməyə başlamış, həm də böyük nailiyyətlər əldə etmişdir və elə yola çıxmışdır ki, artıq bundan sonra daha da sürətlə irəliləyəcəkdir.

Ulu öndər iqtisadi məsələlərin mahiyyətini çox gözəl bilir, bu sahədə dünya təcrübəsinin Azərbaycanda tətbiqinə böyük əhəmiyyət verirdi. Məhz onun səyləri və rəhbərliyi altında hazırlanmış dövlət əmlakının birinci və ikinci özəlləşdirmə proqramları əsasında respublikada yeni iqtisadi münasibətlərin əsası qoyulmuş, özəl sektor yaradılmış, respublikaya böyük xarici sərmayələr cəlb edilmiş, sahibkarlıq üçün geniş imkanlar açılmış, sovet dövründən qalma fabrik və zavodlar dünya bazarına çıxarıla biləcək məhsullar istehsalına yönəldilmək üçün yerli və xarici sahibkarlara verilmişdir. Bununla yeni sənaye sahələri yaradılmaqla bərabər, yeni iş yerlərinin açılmasına da başlanmışdır. Heydər Əliyev inanır və bəyan edirdi ki, Azərbaycan bu sahədə düzgün yoldadır: “Azərbaycan iqtisadi islahatların keçirilməsi sahəsində doğru yoldadır. Çox böyük nailiyyətlər əldə edibdir. Biz bu yolu bəyənmişik, bu yolla gedirik və gedəcəyik”.

Uzaqgörən siyasətçi kimi özünü hələ sovet dövründə təsdiq etmiş Heydər Əliyev yeni dövrün, yeni tarixi şəraitin xüsusiyyətlərini nəzərə alaraq Azərbaycanın inkişaf yolundan danışarkən deyirdi: “Biz çalışırıq və bundan sonra da çalışacağıq ki, inkişaf etmiş ölkələrin səviyyəsinə çatmaq üçün Azərbaycanda tərəqqi daha da sürətləndirilsin. Ancaq bilmək lazımdır: bunların hamısını bir gündə, bir ayda, bir ildə əldə etmək mümkün deyildir. Buna həm zaman lazımdır, həm də iradə, inam lazımdır. Zaman bizdən asılı deyildir. Ancaq iradə, inam özümüzdən asılıdır. Hamı bilməlidir ki, Azərbaycan dövlətində, Azərbaycan hakimiyyətində bu iradə, bu inam var”.

Heydər Əliyev Azərbaycan cəmiyyətini saflaşdırmış, gələcək nəsillər üçün sivil dəyərlərə əsaslanan, milli-mənəvi dəyərləri yaşatmağa qadir olan bir ölkə miras qoymuşdur. Vaxtilə gənclərlə keçirdiyi görüşlərdə dəfələrlə qeyd etmişdir ki: “Bizim gələcəyimiz gənclərdir... Biz bugünkü gənclərə çox yüksək amallara, mənəvi keyfiyyətlərə, yüksək iqtisadi potensiala malik olan dövlət, ölkə əmanət edəcəyik”.

Doğrudan da 1993-cü ildən sonra keçirilən islahatların miqyası və sürəti heyrətamizdir. Bunlardan təkcə kənd təsərrüfatı və torpaq islahatlarını göstərmək kifayətdir. Ulu öndər artıq 2001-ci ildə deyirdi: “Biz konkret olaraq hansı sahədə nələr əldə etmişik? Məsələn, kənd təsərrüfatında biz 1995-1996-cı illərdə torpaq islahatı keçirdik. O vaxt bu bizim üçün cəsarətli addım idi. Çünki MDB ölkələrinin heç birində torpaq islahatı keçirilməmişdir və çoxunda bu günə qədər də aparılmamışdır”. Məhz Heydər Əliyevin bu cəsarətli addımları sayəsində Azərbaycan kəndlisi öz torpağının əsl sahibinə çevrilmiş və bunun böyük bəhrəsini bu gün də görməkdədir. Respublikanın kənd təsərrüfatında son illərdə qazanılmış qələbələr isə göz qabağındadır. Ulu öndərin bu sahədə başladığı işlər müstəqilliyimizin sonrakı illərində də uğurla davam etdirilmiş, Prezident İlham Əliyevin kənd təsərrüfatına göstərdiyi böyük kömək sayəsində artıq Azərbaycan öz ərzaq təhlükəsizliyini təmin edən bir dövlətə çevrilmişdir.

Heydər Əliyev çox gözəl bilirdi ki, Azərbaycanın bir dövlət kimi daim yaşaması, müstəqilliyini qoruyub saxlaması, regionda mövcud olan gərgin siyasi şəraitdə ona dünyanın böyük gücləri tərəfindən göstərilən təzyiqlərə davam gətirməsi, ölkənin zəngin təbii sərvətlərinin qorunması və bu sərvətlərdən Azərbaycan xalqının rifahı naminə istifadə edilməsi üçün güclü və demokratik dövlət, bu dövlətin möhkəm hüquqi bazası, dinamik inkişafına təkan verən iqtisadi sistemi və tarazlı beynəlxalq siyasəti olmalıdır. Buna görə də öz çıxışlarında dönə-dönə qeyd edirdi: “...bu gün Azərbaycana güclü dövlətçilik lazımdır. Əgər Azərbaycanda güclü dövlətçilik olmasa, ölkəmizin həm içindən, həm də kənarından Azərbaycanı dağıdacaqlar. Bunu bilməlisiniz”.

Dünyada və regionda mövcud olan geosiyasi vəziyyəti dərindən təhlil edən Heydər Əliyev Azərbaycanın bütün dövlətlərlə, o cümlədən yaxın qonşuları ilə sıx əlaqələrini yarada bilmiş, Azərbaycanın iqtisadi və siyasi maraqlarını qoruyaraq Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsinə nail olmuş, Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına, enerji daşıyıcılarının alternativ ixrac istiqamətlərinin əldə olunmasına yol açmışdır. Hələ 2000-ci ildə bu kəmərin tikintisinə şübhə ilə yanaşanlar olsa da Azərbaycanın iqtisadi inkişafında yeni bir mərhələnin başlanğıcına təkan vermiş və çox böyük siyasi maneələr dəf edilməklə, eyni zamanda böyük zəhmətlə başa gəlmiş bu kəmər haqqında fəxrlə deyirdi: “Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri var, olacaq və yaşayacaqdır. Bu, elə bir neft kəməridir ki, yüz il, bəlkə də ondan da çox yaşayacaqdır”. Doğrudan da, 2006-cı ildə bu kəmər işə başladı və Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, Azərbaycanın iqtisadi müstəqilliyinin gücləndirilməsində müstəsna rol oynayır. Bunlar hamısı son nəticədə ölkənin iqtisadi müstəqilliyini gücləndirməklə yanaşı, onun tərəqqisinə, inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlməsinə şərait yaratmışdır. Heydər Əliyev bu layihələrin həyata keçirilməsində böyük səbir və təmkinlə, eyni zamanda heyrətamiz iradə və qətiyyətlə hərəkət edirdi.

Ulu öndər Azərbaycanda sahibkarlığı, bir sözlə, özəl sektoru inkişaf etdirmək üçün ona hər vasitə ilə dəstək verir, bu prosesi sürətləndirmək, bu sahədə yaranan maneələri aradan qaldırmaq üçün bilavasitə yerli və xarici sahibkarların özü ilə vaxtaşırı görüşlər keçirir, hətta elə həmin görüşlər zamanı anket sorğusu vasitəsilə onların rəylərini öyrənirdi. Həmin sorğuların nəticələrini ciddi surətdə araşdıraraq problemlərin aradan qaldırılması üçün qəti tədbirlər görürdü. Hələ sovet dövründə öz prinsipiallığı və neqativ hallarla barışmazlığı ilə tanınmış Heydər Əliyev yaxşı bilirdi ki, sahibkarlığın genişlənməsində, ümumiyyətlə, cəmiyyətin inkişafında ən böyük bəlalardan biri korrupsiya hallarıdır. Buna görə də korrupsiyanın kökünün kəsilməsini, buna imkan yaradan səbəblərin aradan qaldırılmasını, ən başlıcası, bütün sahələrdə şəffaflığın təmin edilməsini ön plana çəkirdi. Heydər Əliyev bunu real surətdə həyata keçirmək üçün ilk növbədə hüquqi bazanın və işlək mexanizmlərin yaradılmasını təmin etmişdi, bu mexanizm və strukturların səmərəli fəaliyyət göstərməsinə ciddi nəzarət edirdi. Məhz onun təşəbbüsü ilə yaradılmış Dövlət Neft Fondunun şəffaf fəaliyyəti buna əyani misaldır. Həmin prinsiplərin və ənənələrin bu gün dövlət başçısı İlham Əliyev tərəfindən daha qətiyyətlə davam etdirildiyini heç kəs inkar edə bilməz. Azərbaycan Prezidenti bu məsələləri daim nəzarətdə saxlamaqla yanaşı, korrupsiyanın və bürokratiyanın aradan qaldırılmasının daha müasir vasitələrindən istifadə edir. Bu vasitələr ilk növbədə elektron hökumətin yaradılmasına yönəldilmiş tədbirlərdir. Azərbaycan Prezidenti İlham Əliyev vaxtilə Heydər Əliyevin informasiya və kommunikasiya texnologiyalarının inkişafı sahəsində müəyyən etdiyi strategiyaya uyğun olaraq bu sahəni ən müasir səviyyəyə qaldırmaqla məmur-vətəndaş təmaslarının getgedə azaldılmasını, bilavasitə əhalini narahat edən belə təmasların elektron formada həyata keçirilməsini təmin edir.

Azərbaycanın Heydər Əliyev tərəfindən təməli qoyulan dövlət müstəqilliyinin möhkəmlənməsinə xidmət edən siyasi və iqtisadi inkişaf konsepsiyası ondan sonrakı illərdə ulu öndərin ən sadiq davamçısı İlham Əliyev tərəfindən yeni geosiyasi şəraitdə, dünya iqtisadiyyatında baş verən kataklizmlər nəzərə alınmaqla yeni ideyalarla zənginləşdirilmiş və böyük bacarıqla tətbiq edilmişdir. Prezident İlham Əliyev bu müdrik insanın ideyalarını rəhbər tutaraq ölkəyə rəhbərlik etdiyi dövr ərzində Azərbaycan iqtisadiyyatını üç dəfə artıra bilmiş, Azərbaycanı dayanıqlı və sabit inkişaf edən, öz çoxşaxəli iqtisadiyyatını yaratmış, vaxtilə xarici investisiyalardan asılı olduğu halda, indi xaricdə investisiya qoymaq imkanı olan bir ölkəyə çevirmiş, Azərbaycanda ən müasir texnologiyaları tətbiq etməklə ölkənin gələcək inkişafını sürətləndirən çox böyük potensial yaratmışdır.

Bir sözlə, keçdiyimiz qısa tarixi dövr sübut edir ki, Heydər Əliyev ideyalarının reallaşdırılması üçün göstərilən səylər öz bəhrəsini verir və vaxtilə Heydər Əliyevin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü tədbirlər Azərbaycanın bugünkü və gələcək problemlərinin həllinə, müstəqilliyimizin möhkəmləndirilməsinə, dövlətimizin və xalqımızın tərəqqisinə yönəlmişdir.

BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu, Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

“Binəqədi” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**

# Binəqədi rayonunda hesabat yığıncağı keçirilib

**Oktyabrın 13-də Binəqədi rayonunda bu ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan hesabat yığıncağı keçirilib. İclasda Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısının müavinləri, icra başçısı Aparatının şöbə müdirləri, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.**



Tədbirdə hesabat məruzəsi ilə çıxış edən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov Nazirlər Kabinetinin 2016-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısının qarşıya qoyduğu vəzifələrdən söz açıb, 9 ay ərzində rayonun sosial-iqtisadi və mədəni-ictimai həyatında əldə olunan uğurlu nəticələrdən, aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərindən, həyata keçirilən infrastruktur layihələrdən ətraflı danışıb. Xaləddin İsgəndərov bildirib ki, oktyabrın 18-də xalqımız müstəqilliyimizin qazanılmasının 25 illiyini qeyd edəcək: “Tarix üçün bu rəqəm böyük sayılmasa da, bizim üçün çox böyük mərhələdir. Biz bu 25 ildə xalq olaraq çox çətin sınaqlardan keçdik. Xalqımızın bu sınaqlardan uğurla keçməsində Ulu Öndərin misilsiz xidmətləri olub. Azərbaycan xalqına varlıq, müstəqillik, demokratiya bəxş edən Heydər Əliyev kimi dühanın olması ölkəmiz üçün böyük nemətdir. Hakimiyyətdə olduğu gündən atdığı hər addımı xalqının rifahına hesablayan Ulu Öndər olmasaydı insanları birləşdirən, vahid amal uğrunda cəmləyən dövlət qurulmasaydı, ölkəmiz təhlükə ilə qarşılaşardı”.

İcra başçısı vurğulayıb ki, yeni əsrə Azərbaycan dövləti güclü, suveren, müstəqil, demokratik, dünya birliyinə inteqrasiya yolunda böyük addımlar atmış dövlət kimi daxil olub: “Ötən müddət ərzində Prezident İlham Əliyevin apardığı modernləşmə siyasəti Azərbaycan dövlətini tək regionda deyil, dünyada da aparıcı dövlətlər sırasına yüksəltdi. Azərbaycan artıq dünyada sayılan, xarici siyasəti ilə super dövlətlərin hesablaşdığı ölkədir. Bu gün qüdrətli, müstəqil Azərbaycan dövlətinin bütün sahələrdə təhlükəsizliyi təmin edilir. Bütün bu illər ərzində Azərbaycan xalqında əminlik hissi yarandı və insanlarımız rahat, qayğısız həyat yaşamağa başladı. Müstəqil Azərbaycan dövləti hələ çox uğurlara imza atacaq. Bunun üçün hər bir Azərbaycan vətəndaşı var gücü ilə çalışmalıdır”.

Ötən ay keçirilən ümumxalq səsverməsində Binəqədi rayonunun yüksək fəallıq nümayiş etdirdiyini söyləyən RİH başçısı buna görə rayon sakinlərinə öz təşəkkürünü bildirdi: “Sentyabrın 26-da keçirilmiş və ölkəmizin üçün çox vacib hadisə sayılan – Referendumda Binəqədi seçiciləri yüksək fəallıq nümayiş etdirdilər. Belə ki, seçki ərəfəsində Binəqədi rayonu ərazisində üç müstəqil – 8 saylı Binəqədi birinci, 9 saylı Binəqədi ikinci, 10 saylı Binəqədi üçüncü Seçki Dairəsi və bir müştərək – 12 saylı Qaradağ-Binəqədi-Yasamal Seçki Dairəsi fəaliyyət göstərib. 12 saylı Qaradağ-Binəqədi-Yasamal Seçki Dairəsi üzrə 4 seçki məntəqəsi Binəqədi rayonunun tərkib hissəsinə daxildir. Seçki günü 8 saylı Binəqədi birinci Seçki Dairəsi üzrə 40 seçki məntəqəsi (39 açıq və 11 saylı cəzaçəkmə müəssisəsində yerləşən 1 qapalı), 9 saylı Binəqədi ikinci Seçki Dairəsi üzrə 38 seçki məntəqəsi (37 açıq və 6 saylı Birləşmiş Şəhər Xəstəxanasında yerləşən 1 qapalı), 10 saylı Binəqədi üçüncü Seçki Dairəsi üzrə 36 seçki məntəqəsi (35 açıq və Binəqədi qəsəbə ərazisində, N saylı hərbi hissədə yerləşən 1 qapalı), 12 saylı Qaradağ-Binəqədi-Yasamal Seçki dairəsi üzrə isə 4 seçki məntəqəsi, ümumilikdə rayon üzrə 118, o cümlədən, 115 açıq, 3 qapalı seçki məntəqəsi 26 sentyabr 2016-cı il tarixdə keçirilmiş ümumxalq səsverməsində (Referendumda) fəaliyyət göstərib.

Ümumilikdə rayon üzrə 100274 nəfər, başqa sözlə 66,2 faiz seçici səsvermədə iştirak edib, o cümlədən 8 DSK üzrə 32232 seçici, başqa sözlə 66,6 faiz, 9 saylı DSK üzrə 32161 seçici, başqa sözlə 65, 9 faiz, 10 saylı DSK üzrə 32493 seçici, başqa sözlə 66,1 faiz və 12 saylı müştərək DSK (4 seçki məntəqəsi üzrə) üzrə isə 3388 seçici, başqa sözlə 66 faiz seçici səsvermədə iştirak edərək ölkəmizin daha da güclənməsinə və inkişafına “HƏ” deyiblər”.

Məruzədə vurğulanıb ki, cari ilin 9 ayının yekunlarına görə, Binəqədi rayonunun iqtisadiyyatının əsasını təşkil edən sənayenin dinamik inkişafı davam etdirilib və bu müddət ərzində xidmətlər də daxil olmaqla 153 milyon 37 min




manatlıq məhsul istehsal olunub. Rüb ərzində sənaye müəssisələrində 6432 nəfər işləyib, orta aylıq əmək haqqı isə 468,0 manat təşkil edib. Keçən ilin müvafiq dövrü ilə müqayisədə nəqliyyat sektorunda 0,2% artım müşahidə olunub. 2016-cı ilin yanvar-sentyabr aylarında rabitə müəssisələri tərəfindən 4630,1 min manat xidmət göstərilib. Son illərdə istehlak bazarında müsbət irəliləyişlər əldə olunub. Hesabat dövründə istehlak bazarı inkişaf etməkdə davam edib və pərakəndə ticarət şəbəkəsindən rayon əhalisinə 906 milyon 927 min manatlıq istehlak malları satılıb.

Tikinti sektorunda bütün maliyyə mənbələri hesabına 18 milyon 994min manat əsas fondlar istifadəyə verilib. Fəhlə və qulluqçuların orta aylıq əmək haqqı isə 386,2 manat təşkil edib.

Əhaliyə göstərilən pullu xidmətlərin həcmi 285 milyon 145 min manat olub ki, bunun da 15,8%-i dövlət müəssisələrinin payına düşüb.

Hesabat dövründə əhalinin məşğulluğu barədə məlumatlar və qeyri-məşğul əhalinin ödənişli əsaslarla ictimai faydalı əməyə cəlb edilməsi ilə əlaqədar Binəqədi Rayon Məşğulluq Mərkəzi tərəfindən işə ehtiyacı olan vətəndaşların qeydiyyata götürülərək, aidiyyəti vakant iş yerləri ilə təmin edilməsi prosesi davam edib. Görülən işlərlə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına mütəmadi məlumatlar təqdim edilib. Bildirilib ki, Binəqədi rayonu ərazisində ilin əvvəlindən 4120 yeni iş yeri açılıb. 2016-cı ilin yanvar-sentyabr aylarında rayonda işçilərin orta sayı 40987 nəfər təşkil edib. Belə ki, dövlət sektorunda işçilərin orta aylıq sayı 15 min 987, qeyri dövlət sektorunda isə 25 min 208 nəfərdir. 9 ay ərzində Binəqədi Rayon Məşğulluq Mərkəzi tərəfindən 486 nəfərə işsizlik statusu verilib. Orta aylıq nominal əmək haqqı isə 407,8 manat olub.

Əhalinin sosial təminatının yaxşılaşdırılması məqsədilə cari ilin 9 ayı ərzində 3375 ailəyə və ya 13037 nəfər ailə üzvünə ünvanlı dövlət sosial yardım təyin olunub. Binəqədi rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 247 nəfər tək ahıl vətəndaşa və əlilə xidmət göstərilir.

Pensiya və muhasibat uçotu üzrə 2016-cı ilin 9 ayı ərzində şöbə üzrə 34445 pensiyaçıya xidmət göstərilib. Bunlardan 23022 nəfərinin yaşa görə , 8825 nəfərini əlilliyə görə , 2598 nəfərinin isə ailə başçısının itirməyə görə pensiya alanlardı. Ödənilən pensiya məbləği 66,8 milyon manat olub. Rayon üzrə orta pensiya məbləği isə artaraq 219,7 manat təşkil edib.

Çıxışda vurğulanıb ki, bu il oktyabr ayının 1-i vəziyyətinə Binəqədi rayonunda daimi qeydiyyatda olan əhalinin sayı 262 min 500 nəfər olub. Bu müddət ərzində rayonda 3035 nəfərin doğumu və 960 nəfərin ölümü qeydə alınıb. Təbii artım isə 2075 nəfər təşkil edib. Cari ilin yanvar-sentyabr aylarında 1350 nikah və 412 boşanma halları qeydə alınıb.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, son illər Binəqədi rayonu ərazisində həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işlərinin tərkib hissəsi kimi, rayonun mikrorayonlarında və qəsəbələrində yeni parklar, xiyabanlar, yaşayış məntəqələrində nümunəvi məhəllələr salınıb, park və məhəllələrdə çoxsaylı müasir oturacaqlar, uşaq idman-oyuncaq elementləri, quraşdırılıb, yol kənarlarında və nümunəvi məhəllələrdə milli ornamentləri özündə əks etdirən landşaft memarlığına uyğun çəmən örtüyü , həmin çəmənliklərdə müasir dekorativ və ekzotik ağac növləri əkilib.

Rayon ərazisində mərhələli və planlı şəkildə həyata keçirilən abadlıq-quruculuq işləri çərçivəsində 2016-cı ilin 9 ayı ərzində qəsəbələrarası və məhəllədaxili yollarda, mərkəzi prospektlərdə, yaşayış binalarının fasad və dam örtüklərində, park və meydanlarda, həmçinin digər infrastruktur sahələrində yenidənqurma və əsaslı təmir işləri aparılıb, bu istiqamətdə işlər bu gün də davam etdirilməkdədir. Rayon ərazisində ümumilikdə 492 çoxmənzilli yaşayış binası mövcuddur ki, 9 ayı ərzində 134 yaşayış binalarında 7725 m2 dam örtüyü təmir edilib, 27351 m2 çardaqlı dam örtüyü, 1297 giriş kənar əşyalardan təmizlənib,

415 p/m yağış suyu novalçaları dəyişdirilib. Azadlıq prospekti 156, 158, 160, Z.Bünyadov 11, 11b, 9, 9a, 7, 7a, 9/5, C.Hacıbəyli küçəsi 64, 66, 68, 70, Ş.Rəhimov küçəsi 51,54, 53, 56, 57, 58, 60, 62, Ə.Əlixanov küçəsi 89 saylı binaların 89 girişi əsaslı təmir edilib. Əsaslı təmir zamanı pilləkən meydançalarının döşəmə örtükləri yenilənib, girişlərə 89 ədəd dəmir seyf qapı quraşdırılıb. 224 girişdə sıradan çıxmış 445 ədəd pəncərələr plastik pəncərələrlə əvəz edilib. Hesabat dövrü ərzində yaşayış binalarının zirzəmilərində 1193 p/m kanalizasiya, 811 p/m su xətti cari təmir edilib. Eyni zamanda 285 çoxmənzilli binaların zirzəmilərində təmizlik və dezinfeksiya işləri aparılıb.

Bundan əlavə rayon ərazisində məhəllədaxili yollarda və Azadlıq prospektində 67 200 kv.m, Binəqədi qəsəbəsində 2000 kv.m, M.Ə.Rəsulzadə qəsəbəsində 5320 kv.m asfalt örtüyü salınıb.

Binəqədi RİH başçısı Xaləddin İsgəndərov:

> “Ötən müddət ərzində Prezident İlham Əliyevin apardığı modernləşmə siyasəti Azərbaycan dövlətini tək regionda deyil, dünyada da aparıcı dövlətlər sırasına yüksəltdi. Azərbaycan artıq dünyada sayılan, xarici siyasəti ilə super dövlətlərin hesablaşdığı ölkədir.”

“Azəravtoyol” ASC tərəfindən Azadlıq prospektinin yenidən qurulması və yolun genişləndirilməsi işləri həyata keçirilib. Yenidənqurma və yolun genişləndirilməsi zamanı 4030 p/m mərmər səki daşları düzülüb, əraziyə 45200 m2 yeni asfalt örtüyü salınıb. Yenidənqurma işləri başa çatdırıldıqdan sonra prospekt boyunca Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə yol kənarlarında yaşıllıq zolağı salınaraq 28109 m2 çəmən örtüyü, 116 ədəd dekorativ ağac və 21802 ədəd müxtəlif növ bəzək gül-çiçək kollarının əkilməsi işlərinə başlanılıb və bu istiqamətdə işlər bu gündə davam etdirilməkdədir. Ərazinin abadlaşdırılması məqsədi ilə 1500 maşın torpaq gətirilib.

Ötən dövr ərzində 742 ədəd liftin işlək vəziyyətdə saxlanılması təmin edilmiş və 62 lift cari təmir edilib. Ümumilikdə son 3 il ərzində 138 yeni lift quraşdırılıb, 208 lift əsaslı, 260 lift isə cari təmir edilib. Mövsüm ərzində liftlərin fasiləsiz işləməsi üçün lift maşın şöbələrinin üzərinə sakinlər tərəfindən qanunsuz yerləşdirilmiş 121 ədəd su çəni götürülüb, 32 ədəd su çəni isə sistemdən ayrılıb.

Mənzil fondunun yaxşılaşdırılması məqsədilə 2016-cı ilin 9 ayı ərzində binalarda tüstü və baca kanalları tutulmuş mənzillərin siyahıları dəqiqləşdirilib. Zəruri tədbirlərin həyata keçirilməsi üçün 13945 mənzilin tüstü və ventelyasiya kanallarına baxış keçirilib, 1800 mənzildə tutulmuş tüstü kanalları təmizlənib.

2016-cı ilin 9 ayı ərzində rayon ərazisində mövcud olan yaşıllıq sahələrində mövsümi budama işləri aparılmış, quru ağaclar təmizlənmiş, çoxillik güllərə qulluq göstərilmiş, əkilən güllərin alağı təmizlənmiş, vaxt aşırı suvarılmış, parklar quru ot və alaqlardan təmizlənmiş, ərazidə olan çəmənliklərə gübrə verilib. Bütün bunlarla yanaşı hesabat dövründə M.Ə.Rəsulzadə qəsəbəsində 15 ədəd Xan Çinarı, 20 ədəd Şam ağacı, 4400 ədəd gül, Z.Bünyadov prospektində 1800 ədəd, 9-cu mikrorayonda 300 ədəd gül əkilib. Eyni zamanda rayon ərazisində mövcud olan çəmənlik və ağacların suvarılması, qurumuş ağacların vaxtında ərazidən götürülməsi, çəmənliklərin biçilməsi, ağac və kollarda yaşıl budamanın aparılması işləri mütəmadi olaraq həyata keçirilib. Bundan əlavə hesabat dövrü ərzində rayonun Xocəsən qəsəbəsi, Motodrom yaşayış massivində keçirilmiş iməclik zamanı əraziyə 1000 ədad ağac, 1350 gül əkilib, 3000 m2 yaşıl çəmən otu salınıb.

9 ay ərzində rayon ərazisində ümumilikdə 37539 m2 yaşıl çəmən otu, 1151 ədad müxtəlif növ ağac, 116 ədəd dekorativ ağac, 29652 ədəd müxtəlif növ bəzək gül-çiçək kolları əkilib.

Həmçinin rayon ərazisində həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri çərçivəsində hesabat dövründə məişət tullantılarının yığılması və daşınmasında mövcud olan bir sıra problemlər öz həllini tapıb, bu sahəyə xüsusi diqqət ayrılıb. Rüb ərzində məişət tullantıları konteynerləri cari təmir olunub və rənglənib. Xaric olan bərk məişət tullantılarının müvəqqəti toplanması üçün, yaşayış məskənlərində 137 konteyneraltı meydança, 375 uyğunlaşdırılmış sahələrdə (yaşayış binalarının ətrafında, məhəllələrdə, küçələrin kənarında və s.) 2101 ədəd konteynerdən, məişət tullantılarının mütəmadi daşınması üçün ümumilikdə 38 ədəd xüsusi təyinatlı maşından istifadə olunub.

Hesabatda vurğulanıb ki, 2016-cı ilin 9 ayı ərzində Binəqədi Rayon İcra Hakimiyyəti başçısının ümumilikdə 19 görüşü, o cümlədən 2 səyyar qəbulu, 17 səyyar görüşü keçirilib. Həmin görüşlərdə icra hakimiyyətinin məsul işçiləri, hüquq-mühafizə orqanlarının və xidmət sahələrinin rəhbərlərinin iştirakı təmin edilib. Keçirilən görüşlərdə ümumilikdə 2047 nəfər vətəndaş iştirak edib, 205 məsələ qaldırılıb.

Məlumdur ki, vətəndaş məmnunluğunun təmini, hüquq, azadlıq və qanuni maraqların müdafiəsi, korrupsiyaya qarşı mübarizə, ictimai etimadın formalaşdırılması dövrün zərurətinə çevrilib. Bu istiqamətdə vətəndaş müraciətlərinin cavablandırılması, vətəndaşlarının rifah və məmnunluq səviyyəsinin təmin olunması qarşıda duran ən mühüm vəzifələrdən biridir. Hesabat dövründə vətəndaşlardan ümumilikdə 2616 müraciət daxil olub ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 218 vahid və ya 7,7% azdır. Dövr ərzində Binəqədi rayonundan daxil olmuş vətəndaş müraciətlərindən 2022-si ərizə və 592-si şikayət olub.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına 2016-cı ilin yanvar-sentyabr aylarında daxil olmuş vətəndaş müraciətlərinə baxılmasının mövzular və növlər üzrə bölgüsü barədə məlumatlar təhlil olunaraq müəyyən edilib ki, müraciətlərin əsasən 31,5%-i şəhərsalma və tikinti məsələləri, 15,3%-i mənzil məsələləri, qalan müraciətlər – 11,8%-i əmək və əhalinin sosial müdafiəsi məsələləri, 3,6%-ı su-kanalizasiya, qaz, enerji və istilik problemləri ilə bağlı məsələlər, 0,7%-i nəqliyyat məsələləri, 0,8% qaçqınlar və məcburi köçkünlərlə bağlı məsələlər, 1,7%-i ailə-məişə-ı səhiyyə məsələləri, 1,7%-ı sənaye, iqtisadiyyat və sahibkarlığın inkişafı ilə bağlı məsələlər, 2,2%-ı təbii fəlakət hadisələri və fövqəladə hallarla bağlı,5%-ı torpaq məsələləri, 2,1%-ı qaçqınlar və məcburi köçkünlərlə bağlı məsələlər, 2,3%-i ailə-məişət məsələləri, 1% qəbul məsələləri, 17,1%-ı şəhər, rayon icra hakimiyyətlərinin və bələdiyyələrin fəaliyyəti ilə əlaqədar, 1,8%-ı vəzifəli şəxslərin hərəkət və hərəkətsizliyi, 4,9%-ıdigər mövzular ilə əlaqədar olub.

2016-cı ilin yanvar-sentyabr ayları ərzində Binəqədi Rayon İcra Hakimiyyəti Başçısı Aparatında 3664vətəndaş, RİH başçısı tərəfindən isə 210 vətəndaş qəbul edilib.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının 2016-ci il üçün təsdiq edilmiş İş planına uyğun olaraq, hesabat dövründə 18 Şura iclası keçirilmiş və 26 məsələ müzakirəyə çıxarılıb. Müzakirə olunan məsələlərlə bağlı Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən verilmiş tapşırıqların icrası məqsədilə, o cümlədən mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülür.

Çıxışda vurğulanıb ki, Binəqədi Rayon İcra Hakimiyyətində rayon sakinlərinin qarşılaşdığı problemlərin həll edilməsi istiqamətində operativ tədbirlər həyata keçirmək, vətəndaşlara göstərilən xidmətlərin səviyyəsini yüksəltmək üçün yaradılmış Sakinlərin Müraciət Xidmətinə 1 yanvar 2016 – 30 sentyabr 2016-cı il tarixədək daxil olunan zənglər təhlil edilərək müəyyən edilib ki, cavablandırılmış zənglərin sayı 26 min 425, birbaşa cavablandırılmış zənglərin sayı- 20 min 668, yaradılmış əks əlaqələrin sayı- 6385, gündəlik orta zəng sayı-90, tərtib edilmiş şikayət vərəqələrinin sayı 5757 olub. Şikayət xaraqterli 5757 müraciətin, 4647-i və ya 80,7 %-i tam həll olunub, 504-ü və ya 8,8 %-i qismən həll edilib, 606-sı və ya 10,5 %-nə müvafiq izahat verilərək həll olunub.

*Ardı səh. 4-də*

# 3 oktyabr – müstəqil Azərbaycanın gələcək taleyinə işıq saçan tarixi məqam

## Xalqın təkidli tələbi ilə yenidən respublikamızda siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilib

**Azərbaycan xalqının taleyində böyük əhəmiyyətə malik elə günlər var ki, həmin vaxtlarda onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən biri də oktyabrın 3-nə təsadüf edir. Həmin gün xalqımız özünün gələcək taleyini, müqəddəratını həll edən seçim etdi: ölkəmizdə keçirilən prezident seçkilərində ulu öndər Heydər Əliyev seçicilərin böyük əksəriyyətinin etimadını qazanaraq 98.84 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Heydər Əliyevin seçkilərdə bu cür böyük üstünlüklə qələbə qazanması qədirbilən xalqımızın ulu öndərə, onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik istedadına olan dərin inamdan qaynaqlanırdı. Azərbaycan xalqı bilirdi ki, bu ağır və böhranlı dövrdə ölkəyə sahib çıxa biləcək Heydər Əliyev kimi liderə ehtiyacı var.**



Hələ 1969-1982-ci illərdə - Heydər Əliyevin birinci dəfə hakimiyyətdə olduğu müddətdə Azərbaycan üçün gördüyü misilsiz işlər xalqımız tərəfindən unudulmamışdı. 1990-cı ildə 20 Yanvar faciəsinin səhəri günü Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, xalqımıza başsağlığı verməsi, onunla birgə olduğunu bəyan etməsi dahi liderə olan inamı daha da artırmışdı. Həyatının mənasını xalqına və dövlətinə xidmətdə görən ümummilli liderin gənc respublikamıza rəhbərliyə gəldiyi dövrdə ölkəmiz dövlət müstəqilliyini yenicə bərpa etmişdi, Ermənistanla müharibə şəraitində idi. Bu risk doğuran faktorlar böyük dövlətləri və şirkətləri Azərbaycana sərmayə yatırmaqda ehtiyatla davranmağa vadar edirdi. Lakin ulu öndərin beynəlxalq arenadakı şəxsi nüfuzu tərəddüdlərə son qoydu: 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft kontraktları imzalandı. Sonradan "Əsrin müqaviləsi" adlandırılan bu saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, dünya xəritəsindəki mövqeyi möhkəmləndirdi. Azərbaycan artıq bütün dünyada neft ölkəsi olaraq tanınmağa başladı.

Müstəqil dövlətimizin inkişafının sonrakı mərhələləri göstərir ki, ölkəmizi dünyanın vacib aktorları sırasına Heydər Əliyevin şəxsi nüfuzu sayəsində qazanılan uğurlar çıxarıb. Ulu öndər yaxşı bilirdi ki, güclü, nizam-intizamlı ordu yaratmadan Ermənistanın torpaqlarımıza təcavüzünün qarşısını almaq mümkün olmayacaq. Odur ki, hakimiyyətə qayıdışından dərhal sonra bu məsələyə əsas prioritet kimi yanaşmağa, böyük diqqət ayırmağa başladı. Prezident Heydər Əliyev 1993-cü il oktyabrın 10-da Andiçmə mərasimindəki çıxışında bu barədə danışaraq deyirdi: "Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir". Prezident Heydər Əliyev nitqində qətiyyətlə bəyan etdi ki, şəhidlərimizin qanı yerdə qalmayacaq. Azərbaycan xalqı öz qamətini düzəldəcək, ayağa qalxacaq, gücünü birləşdirəcək, müasir ordusunu yaradacaq və müstəqil dövlətini, öz ərazisini bundan sonra göz bəbəyi kimi qoruyacaq.

Bir müddət sonra Ermənistan-Azərbaycan münaqişəsində atəşkəsin əldə edilməsi ordu quruculuğunda köklü islahatların aparılması üçün əlverişli imkan yaratdı. Çox keçmədən ölkəmizdə ordu quruculuğu sahəsində ciddi addımlar atıldı. Vahid komandanlığa tabe olan nizami ordu yaradıldı, Silahlı Qüvvələrimizin maddi texniki bazası gücləndirildi, ordumuz müasir silah və sursatla təmin olundu. Bu ilin aprelində silahlı qüvvələrin təmas xəttində baş verənlər sübut etdi ki, əsası Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti böyük məharətlə həyata keçirilib. Bütün komponentlərdə işğalçıları üstələyən Silahlı Qüvvələrimiz düşmən təxribatının qarşısını qətiyyətlə aldı və dünyaya Azərbaycan ordusunun qüdrətini nümayiş etdirdi.

Ümummilli liderin qarşıya qoyduğu ümdə vəzifələrdən biri də milli dövlət quruculuğunu həyata keçirmək idi və bu məsələ də qısa zaman kəsiyində həllini tapdı. Ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət quruldu. Bu gün öz tarixi və milli ənənələrindən bəhrələnən, dünya demokratiyası təcrübəsinə, ümumbəşəri dəyərlərə əsaslanan Azərbaycan dövləti tam təşəkkül tapıb və uğurla fəaliyyət göstərir. Ən əsası isə xalq və dövlət arasında sarsılmaz birlik mövcuddur. Bu il sentyabrın 26-da Prezident İlham Əliyevin təşəbbüsü ilə Konstitusiyaya dəyişikliklərlə bağlı keçirilmiş ümumxalq səsverməsinin nəticələri bu birliyin nə qədər möhkəm olduğunu bir daha təsdiqlədi.

Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, ümummilli lider və xalq məhəbbətini qazanan ulu öndər kimi qalıb. Millətimizin tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərmiş ikinci dövlət başçısı və siyasi lider tapmaq mümkün deyil. Ümummilli lider təkcə Azərbaycanın deyil, həm də dünyanın nadir və bənzərsiz şəxsiyyətlərdən biridir. Onun əziz xatirəsi hər bir azərbaycanlının, hər bir soydaşımızın qəlbində əbədi yaşayır və yaşayacaq.

# Binəqədi rayonunda hesabat yığıncağı keçirilib





*Əvvəli səh. 3-də*

Hesabat məruzəsində qəsəbələrdə su təchizatının və kanalizasiya şəbəkəsinin yaxşılaşdırılması; çoxmənzilli yaşayış binalarında lift təsərrüfatının cari və əsaslı təmiri, yeniləşdirilməsi və müasirləşdirilməsi işlərinin davam etdirilməsi; Dərnəgül yaşayış sahəsində yerləşən qəzalı yataqxana binalarında 1000-ə yaxın məcburi köçkünün məskunlaşması;

Biləcəri M.Ə.Rəsulzadə Xocəsən qəsəbələində, Aşağı və Yuxarı Sulutəpə yaşayış massivlərində baş verən subasma hallarının qarşısını almaq məqsədilə ümumi kanalizasiya şəbəkəsinin qurulması;

Bakı şəhəri ərazisində yeni inşa edilmiş hündür mərtəbəli yaşayış binalarının istismara qəbulu və burada yaşayan vətəndaşların mənzillərini sənədləşdirərək onların rəsmi qeydiyyata alınması və qəsəbədaxili yolların təmirə ehtiyacın olması ilə bağlı zəruri problemlərə də toxunulub.

Xaləddin İsgəndərov bildirib ki, dünyada baş verən hərbi, siyasi kataklizmlər fonunda Azərbaycandakı əmin-amanlığın olması və gələcəkdə də onun qorunub saxlanılması çox böyük əhəmiyyət kəsb edir: "İnsanlar məhz sabitliyin qorunub saxlanılacağına və islahatların aparılacağına əmin olduqları üçün ümumxalq səsverməsində fəal iştirak etdilər. Referendum ölkəmizdə həyata keçirilməkdə olan islahatların anonsu olmaqla yanaşı, inkişafa yönələn dəyişikliklər üçün hüquqi baza rolunu oynayacaq. Demək olar ki, yeni iqtisadi modelin yaranması, Azərbaycanın böyük iqtisadi potensialından səmərəli istifadə üçün artıq ilkin addımlar atılıb. Təsadüfi deyil ki, Prezident İlham Əliyev 2016-cı ili ölkədə "İslahatlar ili" elan edib. Post-neft dövrünə hazırlaşan Azərbaycan operativ, çevik islahatlar həyata keçirməkdədir. Biz bu inkişafın, həyata keçirilən dövlət siyasətinin uğurlu nəticələrini Binəqədi rayonunda da hiss edirik. Bugünkü reallıq onu deməyə əsas verir ki, Ulu Öndərimizin ideyaları, istək və arzuları tam şəkildə həyata keçirib. Qətiyyətlə qeyd etmək olar ki, Azərbaycan bundan sonra ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha böyük uğurlara imza atacaq, daha uca zirvələri fəth edəcək. Çıxışımın sonunda bildirmək istərdim ki, biz də öz növbəmizdə cənab Prezidentin tapşırıqlarına və tövsiyələrinə əsasən, Binəqədi rayonunda sosial-iqtisadi infrastruktur layihələrinin yüksək səviyyədə icra edilməsi, işsizlik səviyyəsinin azadılması, sənaye sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə müvafiq dəstəklərin göstərilməsi, sakinlərin məmnunluq səviyyəsinin artırılmasına dair bütün lazımi tədbirlərin həyata keçirməsini qarşımıza məqsəd qoyuruq".

Yığıncaqda hesabat məruzəsi ətrafında çıxış edən RİH başçısının müavini Aygün Əliyeva vurğulayıb ki, hesabat dövrü ərzində milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanması, inkişaf və təbliğ etdirilməsi, tarixi hadisələrin, əlamətdar günlərin qeyd edilməsi, rayonda fəaliyyət göstərən ictimai təşkilatlar, təhsil, səhiyyə və mədəniyyət müəssisələri, siyasi partiyalar və dini qurumlarla qarşılıqlı münasibətlərin qurulması, onların fəaliyyətinin koordinasiyası prioritet istiqamətlərdən olub.

RİH başçısının müavini bildirib ki, əhalinin tibbi müayinədən keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin tapşırıqlarından irəli gələn vəzifələrin icrası məqsədilə əhalinin tibbi müayinədən keçirilməsi rayonun 8 tibb müəssisəsi tərəfindən həyata keçirilib. Rayon ərazisində fəaliyyət göstərən səhiyyə ocaqlarında əhalinin tibbi-proflaktik müayinədən keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. Fevral-mart ayları ərzində rayon əhalisindən 164321 nəfəri tibbi müayinədən keçirilib. Eyni zamanda Binəqədi Rayon İcra Hakimiyyəti başçısının sərəncamına əsasən rayonda fəaliyyət göstərən səhiyyə müəssisələrinin kollektivləri əhaliyə səhiyyə xidmətinin təşkilində fəal iştirakına görə və 17 iyun - Tibb İşçilərinin Peşə bayramı münasibəti ilə Fəxri Fərmanlarla təltif edilib. İyunun 17-də Fəxri Fərmanlar səhiyyə müəssisələrində kollektivlərə təqdim olunub.

Qeyd olunub ki, aprel ayında Yeni Azərbaycan Partiyası Binəqədi rayon Təşkilatının inzibati binasında "Qarabağ həftəsi" layihəsinə start verilib. Binəqədi Rayon İcra Hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçiriləcək layihə may ayı ərzində silsilə olaraq davam etdirilərək və Binəqədi rayonunda yerləşən bütün orta ümumtəhsil məktəblərini əhatə edib. Layihənin həyata keçirilməsində əsas məqsəd dövlətimiz və xalqımız üçün hər zaman aktual və müqəddəs amallardan olan vətənpərvərliyin təbliği, Azərbaycanın əzəli tarixi torpaqları olan Dağlıq Qarabağın ermənilər tərəfindən işğalı faktının geniş ictimaiyyətə çatdırılmasından ibarət olub. Həmçinin aprel ayının 27-də Binəqədi rayonunda görkəmli oftolmoloq alim, Azərbaycan tibb elminə misilsiz töhfələr bəxş etmiş akademik Zərifə xanım Əliyevanın anadan olmasının 93-cü ildönümü münasibətilə tədbir, may ayının 10-da isə Binəqədi rayonunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibəti ilə genişmiqyaslı ağacəkmə aksiyası keçirilib. Bundan başqa, 28 May - Respublika günü, Dövlət Qulluqçularının peşə bayramı təntənəli surətdə qeyd olunub.

Aygün Əliyeva vurğulayıb ki, avqust ayının 1-də Binəqədi rayon İcra Hakimiyyəti, Binəqədi rayon İcra Hakimiyyəti yanında İctimai Şura və Yeni Azərbaycan Partiyası Binəqədi rayon Təşkilatının birgə təşkilatçılığı ilə "Referendum və onun siyasi-hüquqi əhəmiyyəti" mövzusuda maarifləndirici tədbir keçirilib.

Binəqədi gəncləri 12 Avqust – Beynəlxalq Gənclər Günü münasibətilə Quba rayonunda olublar. Quba rayonuna səfər Binəqədi Rayon İcra Hakimiyyətində təcrübədə olan bir qrup "ASAN könüllüləri", rayonun yaradıcı gəncləri, "Ölkəmizi tanıyaq" layihəsinin iştirakçıları, 2016-ci il təhsil ilində rayon üzrə 600-dən artıq bal toplayan şagirdlər, Xaricdə təhsil alan Binəqədi gəncləri, "Liderlik Məclisi" layihəsinin iştirakçıları, media nümayəndələri və rayonun digər fəal gəncləri iştirak ediblər.

Bildirilib ki, sentyabrın 9-10-da İslam dünyasının ən əziz bayramlarından sayılan Qurban bayramı münasibətilə Binəqədi rayonunda humanitar aksiya keçirilib. Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən aksiya çərçivəsində rayonda yaşayan şəhid ailələri, əlillər, müharibə veteranları, məcburi köçkünlər, tənha ahıllar və aztəminatlı ailələrə Qurban sovqatı paylanılıb. Qurban Bayramı münasibətilə ümumilikdə rayon ərazisində keçirilən humanitar aksiya çərçivəsində 1500-dən artıq ailəyə qurban əti verilib.

Ümumilikdə, Binəqədi Rayon İcra Hakimiyyəti, Binəqədi Rayon Gənclər və İdman İdarəsi və Yeni Azərbaycan Partiyasının Binəqədi rayon Təşkilatının birgə təşkilatçılığı ilə Binəqədi rayonunda 300-dan çox tədbir keçirilib. Belə ki, cənab Prezident İlham Əliyevin yürütdüyü siyasət və Ümumilli Lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin geniş təbliği, onun ideyalarının və irsinin öyrənilməsi məqsədilə 84, Gənclər və İdman sahəsində 128, tarixi və əlamətdar günlərin qeyd olunması ilə əlaqədar 98 tədbir keçirilib.

Məruzə ətrafında çıxış edən Qaçqınlar və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Binəqədi rayon sektorunun müdiri Abuş Məmmədov isə ötən müddət ərzində rayonda yaşayan köçkünlərlə bağlı görülən işlərdən danışıb.

Bundan sonra iclasın qərar layihəsi oxunub.

Daha sonra yığıncaqda Binəqədi RİH başçısının M.Ə.Rəsulzadə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Məmmədov Mübariz Hidayət oğluna Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı tədqim edilib.

Rayon icra başçısı Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə təhsil işçiləri Xudiyeva Xatirə Rafiq qızını və Məmmədova Sənubər Abdulrəhim qızını "Tərəqqi" medalı ilə təltif edilmələri, Bayramova Gülnar Abbas qızını "Əməkdar müəllim" fəxri adı alması, 8 saylı Binəqədi birinci Dairə Seçki Komissiyasının katibi Məhəmməd Əliyarovu isə 55 illik yubileyi münasibətilə təbrik edib.

Sonra Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Xaləddin İsgəndərov tədbirdə yekun nitqi söyləyib.

# Rayon rəhbərliyi peşə bayramı münasibətilə prokurorluq işçilərini təbrik edib



Oktyabrın 1-də prokurorluq işçilərinin peşə bayramı münasibətilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Aparatın Hüquq şöbəsinin müdiri Yunis Hüseynov, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri və YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov Binəqədi Rayon Prokurorluğunda olub və onları rayon rəhbərliyi adından təbrik ediblər.

Binəqədi rayon prokuroru Nazim İmanov göstərilən diqqətə görə ölkə başçısı cənab İlham Əliyevə və rayon rəhbərliyinə təşəkkür edib. Bildirib ki, ulu öndərin müəyyən etdiyi strateji inkişaf konsepsiyasını uğurla reallaşdıran və keyfiyyətcə yeni müstəviyə qaldıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, insan hüquqlarının və azadlıqlarının qorunmasına, demokratik təsisatların yaradılmasına yönələn siyasəti artıq öz bəhrəsini verib. Azərbaycan, digər sahələrlə yanaşı, cinayətkarlığa, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində öz təcrübəsini bölüşən bir ölkəyə çevrilib.

Sonra Binəqədi Rayon Prokurorluğuna rayon rəhbərliyi adından hədiyyə təqdim olunub.

# Azərbaycan gəncliyi dini radikalizmə və ekstremizmə "yox" deyir




Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə rayon təşkilatının təlimatçısı Natiq İsmayılovun Azərbaycan Prezidenti yanında Gənclər Fondunun VIII qrant müsabiqəsi çərçivəsində qalib gəlmiş "Gənclik dini radikalizm və ekstremizmə yox deyir" adlı layihəsinin yekun tədbiri keçirilib.

Tədbiri giriş nitqi ilə açan layihə rəhbəri N.İsmayılov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasətindən danışıb, bunun bariz nümunəsi kimi Gənclər Fondu tərəfindən gənclərin layihələrinə hər zaman dəstək verildiyini, ideyalarının reallaşdırıldığını bildirib. Bu cür layihələrin gənclərin fəallığının daha da artırılmasına və gənclər arasında sağlam ünsiyyətin yaranmasına səbəb olduğunu deyib. O, müəllifi olduğu layihənin əhəmiyyətindən danışaraq, bu çərçivədə görülən işləri diqqətə çatdırıb.

Tədbirdə geniş nitq söyləyən YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov Azərbaycanda dini tolerantlığın, multikulturalizm dəyərlərinin daim qorunduğunu, inkişaf etdirildiyini və bu istiqamətdə dövlət tərəfindən bir sıra mühüm tədbirlər görüldüyünü vurğulayıb. Dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu və məqsədyönlü siyasətin tərkib hissəsi olaraq ölkəmizdə yaşayan bütün xalqların nümayəndələrinə bərabər hüquqların verildiyini, onların azad, demokratik şəraitdə mehriban bir ailə kimi yaşadıqlarından bəhs edən təşkilat rəhbəri dini radikalizmlə mübarizədə ciddi islahatların aparıldığını, bu durması, öz bilik və bacarıqlarını daim artırması istiqamətində mühüm tədbirlər, layihələr reallaşdırılır. Bildirilib ki, "Gənclik dini radikalizm və ekstremizmə yox deyir" layihəsi də bu baxımdan mühüm əhəmiyyət kəsb edir.



istiqamətdə maarifləndirici tədbirlərin önəmini diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin məsul əməkdaşı Novruz Nuriyev dini radikalizm və ekstremizmə qarşı görülən işlər, gənclərin bu zərərli təriqətlərə qoşulmaması üçün həyata keçirilən çoxsaylı maarifləndirici tədbirlər barədə məlumat verib. O, bu cür layihələrin ölkə ictimaiyyətinin, xüsusilə gənclərin dini biliklərinin daha da təkmilləşməsinə təkan verəcəyini söyləyib. Qeyd olunub ki, Dövlət Komitəsi tərəfindən ölkədə dini sabitliyin davam etdirilməsi, insanların öz dini inanclarını daim rahat və sərbəst həyata keçirmələri üçün tədbirlər mütəmadi xarakter daşıyacaq.

Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov vurğulayıb ki, Binəqədi rayonunda gənclərin asudə vaxtının səmərəli təşkili, onların pis vərdişlərdən uzaq

Binəqədi Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov çıxışında ölkəmizdə müxtəlif dinlərə etiqad edən vətəndaşlara münasibətin, onların qarşılıqlı inam, hörmət və səmimiyyət şəraitində birgə yaşamasının örnək olduğunu vurğulayıb. Qeyd olunub ki, Azərbaycandakı mövcud tolerant mühit dünyanın diqqət mərkəzindədir və bunu ən mötəbər beynəlxalq təşkilatların humanitar, multikulturalizmlə bağlı tədbirlərinin ölkəmizdə keçirilməsi əyani sübut edir.

Tədbirdə layihədə fəal iştirak edən gənclərə sertifikatlar təqdim olunub. Daha sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çəkilən "Fitnə" sənədli filmi nümayiş etdirilib.

# Şərəfli peşə sahibləri bayramlarını qeyd ediblər




Oktyabrın 4-də Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının Binəqədi rayon komitəsinin və Xəzər Universitetinin "Dünya" məktəbinin birgə təşkilatçılığı ilə 5 Oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə təntənəli mərasim keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Xəzər Universitetinin "Dünya" məktəbinin təsisçisi, professor Hamlet İsaxanlı, Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun rektoru, Binəqədi Rayon "Ziyalılar" Cəmiyyətinin sədri Asəf Zamanov, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin müavini Mirzə Cəfərzadə, xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının yaradıcılıq üzrə sədr müavini Hacı İsmayılov, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Binəqədi rayon komitəsinin sədri Almaz Hacıyeva, Binəqədi RİH yanında İctimai Şuranın sədri Aslan Mehdiyev və rayon ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin nümayəndələri iştirak ediblər.



Tədbirdə çıxış edən professor Hamlet İsaxanlı məsuliyyətli və şərəfli peşə olan müəllimin yüksək əqidəyə, mədəniyyətə və mənəviyyata malik, daim düzgün vətəndaşlıq mövqeyi nümayiş etdirməli olduğunu bildirib. Hüseyn Əsgərov isə məhz müəllimlərin uşaq və gəncləri vətənə məhəbbət ruhunda tərbiyə etdiyini, xalqın gələcəyinin məhz müəllimlərin əsas silahı olan bilikdən asılı olduğunu qeyd edib.

Asəf Zamanov, Mirzə Cəfərzadə, Hacı İsmayılov da tədbirdə çıxış edərək, ölkə Prezidenti tərəfindən təhsilin inkişafına diqqətlə yanaşıldığı bildirilib, əldə edilmiş nailiyyətlərin məhz bu diqqət və qayğının nəticəsi olduğu tədbir iştirakçılarının nəzərinə çatdırılıb.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı adından müəllimləri təbrik edən RİH başçısının müavini Aygün Əliyeva son illər bir sıra sahələrdə olduğu kimi, ölkə təhsilində də əldə olunmuş uğurlardan söz açaraq bildirib ki, Azərbaycanda yeni gənc nəslin yetişməsi və tərbiyə olunmasında təhsilin, məktəbin əhəmiyyəti, rolu çox böyükdür: "Bütün bu uğurlar möhtərəm Prezident İlham Əliyevin tapşırığı ilə təhsil sahəsində həyata keçirilən məqsədyönlü islahatların nəticəsidir". Binəqədi rayonunda fəaliyyət göstərən müəllimlərin rayonun ictimai həyatında yaxından iştirak etdiyini də diqqətə çatdıran A.Əliyeva bütün bunlara görə, rayon rəhbərliyi adından müqəddəs peşə sahiblərinə təşəkkürünü bildirib.

Sonra təhsil sahəsində qazandıqları uğurlara və rayonun ictimai həyatında fəal iştirakına görə bir qrup təhsil işçisinə Fəxri fərman və hədiyyələr təqdim olunub. Tədbir Xəzər Universitetinin kamera orkestrinin ifasında klassik musiqi sədaları ilə davam etdirilib. Tədbirin sonunda isə məktəbin həyətində balaca fidanlar müəllimlərə gül təqdim edərək bir daha onları təbrik ediblər.

# Azərbaycan Dövlət Kənd Təsərrüfatı Muzeyinə baxış keçirilib



Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının müavini Aygün Əliyeva, Aparatın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov rayon ərazisində yerləşən Azərbaycan Dövlət Kənd Təsərrüfatı Muzeyində olub.

Muzeyin direktoru Natiq Qurbanov muzeyin tarixi barədə danışıb. O, burada qurulmuş guşələr, eksponatlar haqqında ətraflı məlumat verib. Bildirilib ki, muzey Azərbaycan Respublikasının kənd təsərrüfatının inkişafı tarixinə və onun gerçək vəziyyətinin işıqlandırılmasına həsr olunub. Muzeyin ekspozisiyasında Azərbaycanın kənd təsərrüfatının müxtəlif sahələri: əkinçilik, heyvandarlıq, bağçılıq və s. müxtəlif çeşidli materiallar (sənədlər, fotoşəkillər) öz əksini tapıb. Stasionar ekspozisiyanın tamaşaçılara nümayiş etdirilməsilə yanaşı muzey eyni zamanda geniş həcmli mühazirələr, sənədli filmlərin nümayişi, səyyar sərgilər və s. təşkil edir.

# Balacalar üçün təlim-məşğələ təşkil olunub





Oktyabrın 6-da 158 saylı körpələr evi-uşaq bağçasında Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi və "Humel" Psixologiya Mərkəzinin təşkilatçılığı ilə "Onlarla öyrənək və öyrədək" layihəsinin təqdimetmə mərasimi keçirilib. Tədbirdə Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Leyla Kərimova, 158 saylı körpələr evi-uşaq bağçasının müdiri Rəfiyyə Əsədova, "Humel" Psixologiya Mərkəzinin baş psixoloqu Ülviyyə Hümmətova və uşaq psixoloqu Ülkər Sadıqova iştirak ediblər.

Tədbirə qatıldıqları üçün qonaqlara təşəkkürünü bildirən Rəfiyyə Əsədova bu cür layihələrin balacalar üçün əhəmiyyətli olduğunu diqqətə çatdırıb. Leyla Kərimova isə layihənin məqsəd və məramı barədə geniş məlumat verib və məktəbəqədər təhsil sahəsində belə maraqlı tədbirlərin mütəmadi xarakter alacağını vurğulayıb.

Çıxışlardan sonra psixoloqlar tərəfindən məktəbəqədər təhsil müəssisələrində psixoloji diaqnostika və maarifləndirmə işləri ilə bağlı "Onlar ilə öyrənək və öyrədək" adlı təlim-məşğələ keçilib, uşaqlar üçün «Mənim ailəm», «Ev, ağac, adam», «İnsan rəsmi» adlı əyləncəli oyunlar təşkil olunub.

## Veteran müəllimlər də unudulmadı



Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi və rayon bələdiyyələrinin təşkilatçılığı ilə 5 Oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə rayonda yaşayan təqaüd yaşında olan müəllimlər üçün təşkil edilən tədbirlərdə icra hakimiyyətinin, YAP Binəqədi rayon təşkilatının əməkdaşları, bələdiyyə sədrləri və bələdiyyələrin "İctimai-humanitar" sektorunun rəhbərləri iştirak ediblər.

Təbrikləri səmimiyyətlə qəbul edən müəllimlər Azərbaycanda təhsil sahəsində çalışan insanlara dövlət qayğısının ildən-ilə artığını bildirib, göstərilən diqqətə görə ölkə başçısı İlham Əliyevə öz minnətdarlıqlarını ifadə ediblər.

## Ahıl insanlar qayğı ilə əhatə olunublar



BMT Baş Məclisinin 1992-ci ildə qəbul etdiyi "Ahılların müdafiəsi ilə bağlı Qətnamə"yə əsasən, 1 Oktyabr - Beynəlxalq Ahıllar Günü kimi təsis edilmişdir. 1993-cü ildən etibarən Azərbaycanda da Ahıllar Günü yüksək səviyyədə qeyd edilir. Bu münasibətlə Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi və rayon bələdiyyələrinin təşkilatçılığı ilə ahıl insanlar ziyarət edilib. İcra hakimiyyətinin əməkdaşları, bələdiyyə sədrləri, bələdiyyələrin "İctimai-humanitar" sektorunun rəhbərləri və 25 saylı şəhər poliklinikasının tibbi personalı humanitar tədbirdə iştirak ediblər. Ziyarət olunan ahılların evlərində təmizlik işləri aparılıb, çay süfrəsi təşkil edilib, bayram münasibətilə sovqat təqdim olunub və yaşlı insanlar ixtisaslı həkimlər tərəfindən tibbi müayinədən keçiblər.

Ziyarət edilən Binəqədi rayon bələdiyyəsinin ərazisində yaşayan professor, milyonçu Hacınski nəslinin nümayəndəsi Əziz Məmmədov, Xocəsən bələdiyyəsi ərazisində yaşayan Xədicə İsgəndərova, Binəqədi qəsəbə bələdiyyəsi ərazisində yaşayan Böyük Vətən müharibəsi veteranının həyat yoldaşı, azsaylı xalqların nümayəndəsi Zeytunya Çiçikova, M.Ə.Rəsulzadə bələdiyyəsi ərazisində yaşayan Müti Məmmədov, Biləcəri bələdiyyəsi ərazisində yaşayan keçmiş dövlət qulluqçusu, rayon Ağsaqqallar Şurasının sədr müavini Əminəxanım Ələkbərova bu görüşlərin əhəmiyyətindən danışıblar, belə bir gündə unudulmadıqları üçün sevinc hissi keçirdiklərini diqqətə çatdırıblar. Qonaqlarla keçmiş xatirələrini bölüşən ahıl insanlar vətənə, xalqa xidmət etməyin ən şərəfli peşə olduğunu bildiriblər. Onlar Azərbaycanda ahıl insanlara dövlət qayğısının ildən-ilə artdığını bildirərək, göstərilən diqqətə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Görüşlərin sonunda birgə xatirə şəkli çəkdirilib.

## SMX-ya 3 mindən artıq zəng daxil olub




2016-cı ilin sentyabr ayı ərzində Binəqədi Rayon İcra Hakimiyyətinin Sakinlərin Müraciət Xidmətində (SMX) cavablandırılan zənglərin sayı 3039, birbaşa cavablandırılan zənglərin sayı 2164, yaradılan əks-əlaqələrin sayı 600, günlük orta zəng sayı 99, tərtib edilən şikayət vərəqələrinin sayı isə 565 olub. Şikayət xarakterli müraciətlərin 565-nin icrası təmin edilib, o cümlədən 412-si və ya 73,8%-i tam həll olunub, 74-ü və ya 13,3%-i qismən həll edilib, 72-si və ya 12,9%-nə müvafiq izahat verilərək həll edilib.

Ay ərzində daxil olmuş şikayətlərin sahələr üzrə bölgüsünə gəldikdə isə - müraciətlərin 245-i və ya 43,4%-i su-kanalizasiya, 177-si və ya 31,3%-i qaz təchizatı, 69-u və ya 12,2%-i lift problemləri, 36-sı və ya 6,4%-i sakinləri narahat edən digər məsələlər, 13-ü və ya 2,3%-i küçələrin işıqlandırılması idarəsi, 11-i və ya 1,9%-i elektrik təchizatı ilə bağlıdır, 9-u və ya 1,6%-i yaşıllaşdırma idarəsi, 5-i və ya 0,9%-i zibil və tullantılar ilə əlaqədardır.

Qeyd olunanlarla yanaşı, ay ərzində Sakinlərin Müraciət Xidmətinə iyirmi dörd təşəkkür müraciəti də daxil olub.

# Gələcəyimizi əmanət etdiyimiz peşə sahibləri



Binəqədi rayonunda fəaliyyət göstərən təhsil ocaqlarında dərs deyən müəllimlərin əksəriyyəti öz bilik və bacarığı, yüksək qabiliyyəti və savadı ilə seçilir. Onlardan biri uzun illərdir sevimli və şərəfli peşəsi ilə məşğul olan, indiyədək neçə-neçə savadlı, vətənpərvər şagird yetişdirən Yeganə Şirinovadır. 284 saylı tam orta məktəbin ingilis dili müəlliməsi Yeganə xanım bu vaxtadək çoxlu sayda fəxri fərman və diplomlarla təltif olunub. Heydər Əliyevin ideyalarının təbliğində və həyata keçirilməsində göstərdiyi xidmətlərinə görə "XXI əsrin ziyalısı" fəxri diplomuna layiq görülən Y.Şirinova, həmçinin, pedaqoji sahədə səmərəli fəaliyyətinə, gənc nəslin təlim-tərbiyəsində göstərdiyi əməyə görə Bakı şəhəri üzrə Təhsil İdarəsi tərəfindən fəxri fərmanla təltif olunub. Mütəmadi olaraq müxtəlif mətbu orqanlarda məqalələri dərc olunan Yeganə xanım "Azərbaycan ingilis dili müəllimləri" Birliyinin üzvü və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında ingilis dili bölməsi üzrə seminarların iştirakçısı kimi ictimai fəaliyyətlə də məşğul olur.

İşlədiyi kollektivdə tələbkarlığı və işgüzarlığı ilə böyük hörmət və nüfuz qazanan Yeganə müəllimə, sözün həqiqi mənasında, öz peşəsinin vurğunudur. Şübhəsiz ki, cəmiyyət üçün sağlam düşüncəli, savadlı, bilikli nəsil yetişdirmək və tərbiyə etmək şərəfli və məsuliyyətli işdir. Əlimizdən tutub bizə "Ana", "Vətən" sözlərini yazmağı öyrədən müqəddəs peşə sahibləri - müəllimlər bu işin ağırlığını, çətinliyini hər zaman çiyinlərində daşıyırlar. Hər bir müəllim istedadlı, tərbiyəli, geniş dünyagörüşünə malik şagirdləri ilə fəxr edir. Danılmaz faktdır ki, bir fərd kimi şagirdin istedadını üzə çıxarmaq və onu əsl insan, şəxsiyyət kimi formalaşdırmaq çox çətin, məsuliyyətli və təqdirəlayiqdir. Təbii ki, hər bir müəllim, pedaqoq təlim-tərbiyə prosesində istədiyi nəticəni almaq üçün gərgin əmək sərf edir...

Yeganə Əkbər qızı Şirinova 1966-cı ildə Kürdəmir rayonunda ziyalı ailəsində anadan olub. 1983-cü ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun (Azərbaycan Dillər Universiteti) ingilis-fransız dilləri fakültəsinə daxil olub. Ali məktəbi bitirdikdən sonra təyinatla İmişli rayonunda N.Şirinov adına rus dili təmayüllü orta məktəbdə müəllimlik fəaliyyətinə başlayan Yeganə xanım elə ilk gündən öz bacarığı və məsuliyyəti ilə seçilib. Dərs dediyi şagirdlərə doğma övladı kimi münasibət bəsləyib, onlara nəvazişlə yanaşıb. Gözəl insani keyfiyyətlərə malik olan bu xanım şagirdlərinin hər bir problemini həll etməyə can atır: "Ali məktəbdə qazandıqlarımı uşaqlara həvəslə öyrətməyə çalışırdım. İlk dərs dediyim günü indi də xatırlayıram. Çox həyəcanlı idim. Amma buna baxmayaraq, özümü əla aldım və dərsi keçdim. Bir müddət sonra paytaxta qayıtdım və peşəmi Binəqədi rayonunda fəaliyyət göstərən 284 saylı məktəbdə davam etdirməyə başladım. Elə o vaxtdan bu tədris müəssisəsində çalışıram. Çox gözəl kollektivimiz var, uşaqlarımız da nizam-intizamlı, tərbiyəlidirlər. Onların yüksək təhsil vermək üçün əlimizdən gələni əsirgəmirik.



Azərbaycan dövləti bütün sahələrə, o cümlədən təhsilə xüsusi qayğı ilə yanaşır. Hər birimiz şahidik ki, bu gün respublikamızın bütün bölgələrində ən müasir tələblərə cavab verən məktəblər tikilir və ya təmir olunur. Təhsil ocaqları lazımi avadanlıqlarla təchiz edilir. Belə məktəblərdə oxumamaq və ya yüksək səviyyədə dərs deməmək mümkün deyil. Hər birimiz çalışmalıyıq ki, bu qayğıya öz əməlimizlə cavab verək".

Y.Şirinova hesab edir ki, müəllimlik dünyada ən çətin, eyni zamanda ən şərəfli və gözəl peşədir: "Peşəsindən asılı olmayaraq, hər bir kəs orta məktəbdə oxuduğu illəri xoş xatirələrlə yada salır. Sözsüz ki, həmin xatirələrdə ən əziz yeri ona qələm tutmağı, yazı yazmağı, kitab oxumağı öyrədən müəllim tutur. Bu peşənin sahiblərinə ən gözəl qiyməti ümummilli liderimiz Heydər Əliyev verib. Ulu öndərimizin müəllimlik peşəsinə xüsusi hörməti, münasibəti olub. Müəllimlərə qarşı həmişə tələbkar olan Heydər Əliyev onların işinin çətin, lakin lazımlı, gərəkli olduğunu hər zaman vurğulayıb. Müəllimlər şagirdlərin hərtərəfli maariflənməsi, yaşadıqları dövrün problemlərindən baş çıxarmaları üçün bütün bilik və bacarıqlarını sərf edirlər. Onlar valideynlərlə bərabər uşağın hər cür şıltaqlığına, əziyyətinə dözür, kədəri ilə kədərlənir, sevinci ilə sevinirlər. Bu peşə sahiblərinin əməyinin nəticəsində cəmiyyət formalaşır, intellektual səviyyəli, geniş dünyagörüşünə malik, əxlaqlı insanlar yetişir. Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsində fəal iştirak edənlər məhz müəllim əməyinin yetirmələridir. Hər birimizin layiqli vətəndaş kimi yetişməsində, şəxsiyyət kimi formalaşmasında müəllimlərimizin xidmətləri əvəzsizdir".

Təcrübəli pedaqoq hesab edir ki, şagirdlər bütün fənləri yaxşı bilməlidirlər. Onun fikrincə, müəyyən bir fənnə üstünlük verən şagird tam üstünlük əldə edə bilməz. Yeganə müəllimənin sözlərinə görə, şagirdlər dərslərini oxumaqla yanaşı, çoxlu mütaliə də etməlidirlər: "Hər bir fənnə sevgini müəllim yaradır. Onu da deyim ki, məktəblilərin biliklərinin zənginləşməsində mütaliə böyük əhəmiyyətə malikdir. Şübhəsiz ki, gənc nəslin hərtərəfli inkişafı üçün mütaliə mütləqdir. Çünki çoxlu mütaliə ilə məşğul olan uşaqlarda düşünmə qabiliyyəti daha sürətlə inkişaf edir. Bizim əsas məqsədimiz gələcəyimiz olan gənc nəslin həyatına yeni dəyərlər gətirmək, hər cür yeniliklərə qarşı onların daha savadlı, daha ağıllı böyüməsinə təkan verməkdir. Məhz bu məqsədlə məktəbimizdə şagirdlərə mütaliə vərdişlərini aşılamaq istiqamətində silsilə tədbirlər həyata keçirilir".

## Müharibə veteranına yubiley təbriki





"Müharibə Veteranı Qadınlarına Sosial Yardım" İctimai Birliyinin Binəqədi rayon şöbəsinin sədri Mina Məmmədovanın 70 yaşı tamam olub. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov təbrik üçün yubilyarın evində olub.

Görüş zamanı torpaqlarımızın azadlığı uğrunda gedən Qarabağ döyüşlərində böyük şücaət göstərən 2-ci qrup əlil, keçmiş hərbçi Mina xanıma rayon rəhbərliyinin təbrikləri çatdırılıb, cansağlığı, işlərində uğurlar arzu olunub.

# Müəllimlərin əməyi yüksək qiymətləndirilib

5 Oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ölkədə təhsilin inkişafında xidmətlərinə görə Binəqədi rayonu 83 saylı məktəb-liseyin müəllimi Xatirə Xudiyeva, 267 saylı məktəb-liseyin müəllimi Sənubər Məmmədova "Tərəqqi" medalı ilə təltif edilib, 246 saylı məktəb-liseyin müəllimi Gülnar Bayramovaya isə "Əməkdar müəllim" fəxri adı verilib. Əməyi dövlət tərəfindən yüksək qiymətləndirilən müəllimlərlə görüşüb, onları təbrik etmək qərarına gəldik.



Təcrübəli pedaqoq Sənubər Məmmədova uzun müddətdir ki, müəllimlik peşəsi ilə məşğuldur. 2007-ci ildən 267 saylı məktəb-liseydə riyaziyyat və informatika fənlərini tədris edən Sənubər xanımın dərs dediyi şagirdlərin əksəriyyəti yüksək bal toplayaraq ali məktəblərə qəbul olunub. S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (Bakı Dövlət Universiteti) tətbiqi riyaziyyat fakültəsini bitirən S.Məmmədova indiyə qədər respublika və beynəlxalq səviyyəli təlimlərdə, müsabiqə və layihələrdə uğurla iştirak edib, ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "Mən Azərbaycanlıyam!" yaradıcılıq müsabiqəsinin qalibi olub, Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş "Təhsildə interaktiv texnologiyalar – 2014" müsabiqəsində I dərəcəli diploma layiq görülüb. Bakı Şəhər Təhsil İdarəsinin müxtəlif Fəxri fərmanları ilə təltif ediləm müsahibimiz, həmçinin, 2014-cü ildə "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olub.

Təcrübəli pedaqoq respublikamızda müəllimlərə hər zaman qayğı ilə, xüsusi diqqətlə yanaşıldığını deyir: "Möhtərəm Prezident İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalı ilə mükafatlandırıldım. Pedaqoji ictimaiyyətin böyük rəğbətlə qarşıladığı bu təltiflər ən müqəddəs və şərəfli peşə sahiblərinə verilən yüksək qiymətdir. Doğma Azərbaycanımızın müstəqil dövlət kimi möhkəmlənməsində fəal iştirak edənlər məhz müəllim əməyinin yetirmələridir. Azərbaycan dövlətinin müəllimlərə göstərdiyi qayğı isə göz qabağındadır. Biz də çalışmalıyıq ki, bu qayğı və diqqətə öz əməllərimizlə layiqli cavab verək".



Qabaqcıl təhsil işçisi Xatirə Xudiyeva 83 saylı məktəb-liseyin təsviri incəsənət və rəsmxət müəllimәsidir. Təhsil Nazirliyinin təsviri incəsənət və rəsmxət dərslikləri üzrə qiymətləndirmə komissiyasının üzvü, fənn kurikulumlarının tətbiqi üzrə təlimçi olan Xatirə xanım həm də Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunda təsviri incəsənət fənni üzrə mühazirəçidir. Müsahibimiz həm də Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ötən ilin sonunda "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olub.

1971-ci ildə Sumqayıt şəhərində anadan olan X.Xudiyeva orta məktəbi əla qiymətlərlə başa vurub. Daha çox humanitar fənlərə maraq göstərən Xatirə xanım müxtəlif rəsm müsabiqələrində fəal iştirak edib və həmişə uğur qazanıb. 1989-cu ildə N.Tusi adına Azərbaycan Pedaqoji İnstitutunun (Azərbaycan Dövlət Pedaqoji Universiteti) bədii qrafika fakültəsinə qəbul olunub.

Əmək fəaliyyətinə 1995-ci ildən 83 saylı orta məktəbdə başlayan Xatirə müəllimə dərs deməklə yanaşı, müxtəlif janrlarda rəsm əsərləri çəkərək müsabiqələrdə iştirak edib. Hazırda onun yetirmələrinin çəkdiyi şəkillər də tədbirlərdə nümayiş olunur, həm rayondaxili, həm də respublika səviyyəli müsabiqələrdə mükafata layiq yerlər tutur. Qeyd edək ki, bu günlərdə Xatirə müəllimənin müəllifi olduğu təsviri incəsənətə aid dərs vəsaiti işıq üzü görüb.

Müəllimlərin əməyinə verilən yüksək qiymətə görə dövlət başçısına minnətdarlığını bildirən Xatirə Xudiyeva bundan sonra da Azərbaycan təhsilinin inkişafına öz töhfəsini verəcəyini vurğuladı.

# Gənclər arasında multikultural dəyərlər təbliğ olunur



Binəqədi rayonunda Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi, Binəqədi Rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə VIII qrant müsabiqəsinin qalibi Türkan Sadıqovanın "Gənclər arasında multikultural dəyərlərin təbliği" adlı layihənin təqdimat mərasimi həyata keçirilib.

YAP Binəqədi rayon təşkilatının inzibati binasında keçirilən açılış mərasimində Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirliyi xidmətinin əməkdaşı Sərraf Hüseynov, rayon Gənclər və İdman İdarəsinin rəis müavini Sevinc Süleymanova, YAP Binəqədi rayon təşkilatının Aparat rəhbəri Sevinc Abdullayeva, layihənin rəhbəri Türkan Sadıqova və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Türkan Sadıqova layihə haqqında ətraflı məlumat verib, layihənin həyata keçirilməsində göstərdikləri köməyə görə Gənclər Fonduna və təşkilatçılara təşəkkürünü bildirib. Sonra çıxış edənlər Azərbaycanın tolerantlıq diyarı olduğunu, tarixən ölkəmizdə müxtəlif millətlərin mehriban, dostluq şəraitində yaşadıqlarını nəzərə çatdırıblar.

Sərraf Hüseynov çıxışında multikulturalizmin Azərbaycan modeli haqqında ətraflı məlumat verib, 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edildiyini nəzərə çatdıraraq il ərzində ölkəmizdə bu sahədə respublika və beynəlxalq miqyaslı elmi-nəzəri, elmi-praktik konfransların, seminarların, "dəyirmi masa"ların, mühazirələrin keçirildiyini vurğulayıb. O, "Gənclər arasında multikultural dəyərlərin təbliği" adlı layihənin də bu baxımdan böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Daha sonra ekspert iştirakçıları maraqlandıran sualları cavablandırıb.

Qeyd edək ki, layihə çərçivəsində "Təzə Pir məscidi" və Müqəddəs Jen-Mironosits kilsəsinə ekskursiya təşkil olunub. "Təzə Pir məscidi"nin axundu Hacı Cəmil gənclərə məscidin tarixi, burada icra olunan dini ayinlər haqqında geniş məlumat verib. Müqəddəs Jen-Mironosits kilsəsinin nümayəndəsi isə binanın məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə tikildiyini iştirakçıların nəzərinə çatdırıb, Azərbaycanda bütün dinlərə hörmətlə yanaşıldığını, dini icmalara dövlət tərəfindən diqqət və qayğı göstərildiyini məmnunluqla qeyd edib.

Layihə çərçivəsində gənclər "Dağ yəhudiləri"nin sinaqoqunda da olublar Dağ Yəhudiləri Dini İcmasının sədri Melix Yevdayev gənclərə sinaqoq haqqında ətraflı məlumat verib, müqəddəs ibadət ocağının Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və qayğısı ilə inşa edildiyini bildirib.

Sonra iştirakçılar Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə səfər ediblər. Mərkəzin fəaliyyəti, məqsəd və məramı barədə gənclərə geniş məlumat verilərək bildirilib ki, bu qurum Azərbaycan multikulturalizminin dövlət siyasəti kimi ölkə daxilində və xaricdə təbliği, multikultural ənənələrin qorunması və müasir dövrün tələblərinə uyğun inkişafı üçün ardıcıl ideoloji-siyasi və praktiki fəaliyyət göstərməklə məşğuldur.

Sonda təlimlərdə iştirak edən gənclərə sertifikatlar təqdim olunub və bununla da layihəyə yekun vurulub.

# "Profayling – 60 saniyədə insan tanıma sənəti" kitabının təqdimatı




Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının Gənclər Birliyi və CIBS (Caspian International Business Services) şirkətinin birgə təşkilatçılığı ilə "Profayling - 60 saniyədə insan tanıma sənəti" kitabının təqdimat mərasimi keçirilib. Rayon təşkilatının inzibati binasında keçirilən tədbiri giriş sözü ilə açan Gənclər Birliyinin sədri Mahmud Məmmədzadə təqdimat mərasimi çərçivəsində təşkil ediləcək seminar barəsində ətraflı məlumat verib.

YAP Binəqədi rayon təşkilatının Aparat rəhbəri Sevinc Abdullayeva çıxışında bu kimi layihələrin Binəqədi rayonunda mütəmadi olaraq keçirildiyini və önəmini vurğulayıb. Qadın İnkişaf Mərkəzinin rəhbəri, CIBS təlim mərkəzinin direktoru Gülnarə Tağıyeva isə öz nitqində göstərilən dəstək və qonaqpərvərlik üçün minnətdarlığını ifadə edib və qarşılıqlı əməkdaşlığa hər zaman hazır olduqlarını vurğulayıb.

Təlim mərkəzinin psixoloqu, ailə-konsultantı Lalə Həmidli də göstərilən diqqət üçün rəhbərliyə təşəkkürünü ifadə edib və cəmiyyətdə bu cür layihələrə böyük tələbat olduğunu deyib.

Təqdim olunan kitabın müəllifi, CIBS təlim mərkəzinin təsisçisi,"Yalanın Beynəlxalq Araşdırılması Akademiyası"nın mütəxəssis profayleri, biznes təlimçisi, Azərbaycanda ilk dəfə olaraq operativ psixodiaqnostika və FACS (facial action coding system) üz əzələlərinin kodlaşdırılması sistemi layihələrinin rəhbəri Təbriz Hacıyev təşkilati dəstəyə görə minnətdarlığını bildirib və kitab haqqında geniş məlumat verdikdən sonra müvafiq mövzuda seminarı auditoriyaya təqdim edib.

# Tanınmış yazıçının yubileyi qeyd olunub



Azərbaycan Yazıçılar Birliyində milyonçu neft maqnatı Ağa Musa Nağıyevin nəvəsi, "Milli dəyərlərin qorunması" İctimai Birliyinin sədri, yazıçı Dilarə Ağa Musa Nağıyevanın 75 illik yubileyi qeyd olunub.

Yubilyarı təbrik etmək üçün təşkil edilən tədbirdə millət vəkili Qənirə Paşayeva, Azərbaycan Yazıçılar Birliyinin yaradıcılıq məsələləri üzrə katibi İlqar Fəhmi, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, şöbənin əməkdaşı Emil Lətifov, BMT-nin Azərbaycan üzrə sülh səfiri Rəhim Hüseynov, Azərbaycan Yazıçılar birliyinin üzvləri və bir sıra ictimai təşkilatların rəhbərləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan İlqar Fəhmi qonaqları salamlayaraq, yubilyara xoş sözlərini və Yazıçılar Birliyinin sədri Anar Rzayevin təbrikini çatdırıb. Daha sonra söz Dilarə Ağa Musa Nağıyevaya verilib. O da öz növbəsində dəvəti qəbul edib gəldikləri üçün hər kəsə təşəkkür və ehtiramını bildirib. Dilarə xanım çıxışı zamanı babası Ağa Musa Nağıyevin Azərbaycan xalqı qarşısındakı xidmətlərindən danışıb.

Millət vəkili Qənirə Paşayeva da öz növbəsində Dilarə Ağa Musa Nağıyevanı təbrik edib.

Daha sonra çıxış edən Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov yubilyarı rayon rəhbərliyi adından təbrik edib, Ağa Musa Nağıyevin xidmətlərindən söz açaraq qədirbilən Azərbaycan xalqının bu xidmətləri unutmadığını, rayon icra hakimiyyətinin dəstəyi ilə Biləcəri qəsəbəsində xeyriyyəçinin qəbirüstü abidəsinin ucaldıldığını, xatirəsinə iftar süfrələrinin təşkil olunduğunu diqqətə çatdırıb.

Tədbirin sonunda yubilyara hədiyyələr təqdim olunub və xatirə şəkli çəkdirilib.

# Səyyar Asan Xidmət Biləcəridə



Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Səyyar ASAN xidməti oktyabr ayının 10-dan 19-a dək Biləcəri qəsəbəsi, Asəf Zeynallı küçəsi 37 "A" (Bələdiyyənin qarşısı) ünvanında vətəndaşların xidmətində olacaq.

# Abadlıq işləri davam edir




Ötən ay ərzində rayon ərazisində 353 müxtəlif ünvanda su xətlərində qəzaların qarşısı alınıb, 52 metr su xətti dəyişdirilib, 2 müxtəlif ünvanda su anbarları yuyulub, 39 metr kanalizasiya xətti çəkilib. Bu barədə əməkdaşımıza rayon Təsərrüfat şöbəsindən məlumat verilib. Bildirilib ki, ay ərzində Binəqədi TXİ QTŞ-lərə 749 texniki baxış keçirilib və 402 dəfə ərazinin müxtəlif yerlərində tənzimləmə işləri aparılıb.

Azadlıq prospektində PE315 mm-lik L-101 metr uzunluğunda qaz xətti çəkilib, C.Xəndan küçəsində 1 ədəd ŞQTM-300 və 1 ədəd d-200 mm-lik siyirtmə, 3 ədəd ŞQTM-500 quraşdırılıb.

Bütün qazanxana və istilik məntəqələrində təmir, bərpa və abadlaşdırma işləri yekunlaşdırılıb. 8-ci mikrorayonda 114 mm, L-60 m istilik xətti dəyişdirilib. Mövsümlə əlaqədar olaraq Yəhya Hüseynov küçəsi 3-cü döngədə yerləşən 386 saylı qazanxanadan istiliklə təmin olunacaq binalara istilik xətləri çəkilib. Həmçinin, həmin binaların aşağı paylama istilik sistemləri yenidən bərpa olunub.

Dərnəgül yaşayış massivində əhalinin elektrik təchizatını yaxşılaşdırmaq məqsədilə 6 kV-luq 513 saylı TM 10 kV–luq sistemə keçirilib. Mikrorayonlarda 61 ədəd yararsız lampa, 190 metr yanmış kabel dəyişdirilib.

Rayon ərazisində mövcud olan yaşıllıq sahələrində mövsümi budama işləri aparılıb, quru ağaclar təmizlənib, yeni əkilən və çoxillik güllərə qulluq göstərilib və vaxtaşırı suvarılıb.

2016-cı ilin sentyabr ayında məhlələrin abadlaşdırılması, mənzillərin yumşaq dam örtüklərinin cari, yaşayış binalarının girişlərinin əsaslı, bəzi binaların isə fasad hissələrində cari təmir işləri, eyni zamanda Azadlıq prospektində ikinci yolun yenidən qurulması işləri davam etdirilib. Belə ki, Azadlıq prospekti 156, 158, 160, K.Rəhimov küçəsi 53, S.Məmmədov küçəsi 207, 209 saylı 30 girişli binaların yumşaq dam örtüyü təmir olunub. Əsaslı təmir zamanı girişlərdə əlavə olaraq 45 yeni seyf dəmir qapı qoyulub, 242 ədəd yeni plastik pəncərə quraşdırılıb. Pilləkən meydançalarında metlax döşəmələr qoyulub. Ərazidə tutumu 1000 litr olan 978 konteynerdən təmirə ehtiyacı olan 205 ədədinin təkəri yenisi ilə əvəz edilib.

Sentyabr ayında ayrı-ayrı ərazilərdə 5400 kv.metr asfalt örtüyü salınıb.

8-ci mikrorayon ərazisində Azadlıq prospekti boyunca ikinci yolun yenidən qurulması zamanı 425 metr bardur yenisi ilə əvəz edilib, yolun köhnə asfalt örtüyü yenilənib. İkinci yolun bir tərəfinə hündürlüyü 0,8 metr olmaqla 425 metr uzunluğunda istinad divarları daşlarla üzlənilib. Bunlarla bərabər əsas yolla ikinci yolun arasında yerləşən yaşıllıq zolağında bütün ağaclar budanıb, həmin əraziyə əlavə torpaq tökməklə 9000 m2 qazon vurulub, ağacların dibində xüsusi işıq effekti verən lampalar, 45 ədəd işıq dirəyi quraşdırılıb.

Mənzillərdə baş verə biləcək yanğın, partlayış və boğulma hallarının qarşısını almaq məqsədi ilə qabaqlayıcı tədbir kimi 200 mənzildə tüstü və hava kanalları təmizlənib.

Bundan əlavə, Binəqədi rayonu, Zərifə Əliyeva adına parkda abadlıq-quruculuq işləri aparılır. Belə ki, parkda yaradılmış "göz dekorasiyası"nın gülləri yenidən təzələnib, parkda yeni gül, yaşıl kollar əkilib. O cümlədən, parkın giriş hissəsində aqlay daşları yenisi ilə əvəzlənib.

# Görkəmli sənətkarın nurlu xatirəsinə...




Binəqədi rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında tanınmış səhnə ustası Yaşar Nurinin xatirəsinə həsr olunmuş "Səhnədə keçən ömür" adlı tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikasının xalq artisti, rejissor Mərahim Fərzəlibəyov, İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru İftixar Piriyev, mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin elmi araşdırmalar şöbəsinin metodisti A.Əmirxanov, "Mədəniyyət" qəzetinin əməkdaşı G.Mirməmməd, görkəmli sənətkarın ailə üzvləri, kitabxananın əməkdaşları və fəal oxucuları iştirak ediblər.

Sənət dostlarının da qatıldığı tədbirdə əvvəlcə xalq artistinin həyat və yaradıcılığından söhbət açılıb. Bildirilib ki, teatr aktyoru kimi görkəmli sənətkar olan Yaşar Nuri həm də məşhur kino ustası kimi xatirələrdə qalıb. Onun böyük populyarlıq qazandığı çoxlu ekran obrazları var. Əlliyə yaxın bədii filmə çəkilib, Azərbaycan Dövlət Televiziyasında hazırlanmış yüzdən çox tamaşada, bədii kompozisiyada, satirik səhnəciklərdə iştirak edib. Yaşar Nurinin əsasən baş rolları ifa etdiyi tamaşalar televiziyanın fondunda əsl sənət nümunələri kimi qorunur.

Sonda iştirakçılar mərhum sənətkarın xatirəsinə həsr edilmiş sərgi ilə tanış olublar.

# Balaca fidanlar filmə çəkildilər



Binəqədi rayonu Azadlıq prospekti, Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkı və məhəllədaxili parklarda rayonun 138 saylı körpələr evi-uşaq bağçasının balaca sakinlərinin iştirakı ilə "Binəqədinin nağılı" adlı filmin çəkilişləri həyata keçirilib.

Çəkiliş zamanı uşaqların timsalında müxtəlif nağıl personajlarının obrazları canlandırılıb. Filmdə, həmçinin, rayonla bağlı maraqlı səhnəciklər yer alıb.

# Sağlam nəsil, sağlam gələcək



Bu gün cəmiyyətimizdə uşaqların təhsildən yayınması və erkən nikah hallarına cəlb edilməsi xüsusi narahatlıq yaradan məsələlərdəndir. Erkən nikah uşağın gələcək həyatını təhlükə altına qoyur, cəmiyyət üçün sağlam olmayan nəslin yetişməsinə gətirib çıxarır. Bu cür halların qarşısının alınması sahəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq müxtəlif istiqamətli maarifləndirmə tədbirləri həyata keçirilir.

Erkən nikahlarla bağlı uşaqların məlumatlandırılması, bu sahədə müzakirələrin aparılması məqsədilə Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən rayonda fəaliyyət göstərən 283 saylı tam orta məktəbdə "Mənim hüququm var!" adlı təlim keçirilib. Təlimlərdə Komitənin Uşaq Problemləri şöbəsinin müdiri Cəmilə Bağırova və həmin şöbənin əməkdaşları, eləcə də rayon icra hakimiyyətinin məsul əməkdaşı Elnur Məmmədov iştirak ediblər.

Təlimlər zamanı mövzu ilə bağlı təqdimatlar edilib, mövzu ilə bağlı komitə tərəfindən çəkilmiş sosial çarxlar nümayiş etdirilib, təqdimatlarda erkən nikahlar və onların fəsadları, bu sahədə mövcud qanunvericilik barədə ətraflı məlumat verilib. Təlim zamanı uşaqlarla fəal müzakirələr və qrup işləri aparılıb, həmçinin problemin aradan qaldırılması istiqamətində təkliflər dinlənilib.

# Ağsaqqal sözü, ağbirçək nümunəsi...



Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin Binəqədi rayonu Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 1 saylı filialında 1 Oktyabr – Ahıllar Günü ilə bağlı "Sağlığında qiymət verin insanlara" adlı tədbir keçirilib. Tədbirdə filialın müdiri Almaz Ələkbərova, müəllimə Nigar Musazədə, ahıl oxucular və digər şəxslər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan A.Ələkbərova bayram münasibətilə ahılları təbrik edərək, bu günün Binəqədi rayonunda da hər il yüksək səviyyədə qeyd edildiyini diqqətə çatdırıb. Bildirib ki, dövlət başçısının yürütdüyü siyasətin mahiyyətindən irəli gələrək, cəmiyyətin hər bir həssas zümrəsi kimi, ahılların sosial problemləri də daim diqqət mərkəzində saxlanılır, onlara hərtərəfli qayğı göstərilir: "Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründən indiyədək hər il respublikamızda bu bayram qeyd edilir. 22 iyun 2001-ci il tarixində "Ahıllara sosial xidmət haqqında" Qanunun qəbulu da bu zümrədən olan insanlara hərtərəfli dövlət qayğısını təmin edib. Hər il ölkə Prezidenti tərəfindən təqaüdlərin artırılmasının şahidi oluruq. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ahıllarla bağlı keçirdiyi sosial aksiyalar yalnız Azərbaycanda deyil, bütün dünyada xeyirxahlıq, qayğıkeşlik nümunəsi kimi dəyərləndirilir". Qeyd olunub ki, ağsaqqal sözü, ahıl məsləhəti gənclərə hər zaman lazımdır. Yaşlı nəslə dayaq durmaq, onlara kömək əlini uzatmaq hər birimizin mənəvi borcudur. Yetişməkdə olan gənc nəslin bu ruhda tərbiyə olunması üçün bunlar vacib şərtlərdəndir.

Tədbirin sonunda ahıl oxuculara hədiyyələr təqdim olunub.

# Tələbə-gənclər geniş imkanlardan yararlanırlar

Bakı Ali Neft Məktəbində (BANM) Binəqədi Rayon İcra Hakimiyyəti, rayon Gənclər və İdman İdarəsi, YAP Binəqədi rayon təşkilatının Gənclər Birliyi və Bakı Ali Neft Məktəbinin birgə təşkilatçılığı ilə BANM-in "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisasının 3-cü kurs tələbəsi Pakizə Paşayevanın "I can or I must" ("Mən bacara bilərəm") adlı layihəsinin yekununa həsr olunmuş tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov, Milli Məclisin İnformasiya resursları və texnologiyaları şöbəsinin müdir müavini Yaşar Əməşov, Binəqədi rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, BANM-in rəhbərliyi və tələbə-gənclər iştirak ediblər.





Tədbiri giriş sözü ilə açan BANM-in rektoru Elmar Qasımov rəhbərlik etdiyi təhsil ocağının qısa zamanda əldə etdiyi uğurlardan, görülən işlər və gələcək perspektivlərdən danışıb, haqqında məlumat verib, məktəbin yeni kampusunun artıq hazır olduğunu və tələbələrin potensialının üzə çıxarılması üçün daha geniş imkanların yaradıldığını bildirib, gənc olmasına baxmayaraq, BANM-in respublikanın ali təhsil müəssisələri arasında öncül və müsbət imic formalaşdıran bir tədris ocağı olduğunu vurğulayıb. Qeyd olunub ki, məktəbin rəhbərliyi tələbələrin inkişafı üçün bütün layihələrə və təşəbbüslərə daim dəstək verməyə hazırdır.

Pakizə Paşayeva müəllifi olduğu layihə haqqında məlumat verərək onun məqsəd və məramını açıqlayıb. Gənclərin hərtərəfli inkişafının təmin olunması üçün Azərbaycanda lazım olan bütün təminatların yaradıldığını vurğulayan layihə rəhbəri dövlət tərəfindən onlara göstərilən qayğıdan söz açıb və dəstəyə görə hər kəsə minnətdarlığını bildirib. Bilik Fondunun icraçı direktoru Oktay Səmədov öz çıxışında əmin olduğunu bildirib ki, gələcəkdə BANM-in tələbələrinin bir çoxu dünyanın ən iri şirkətlərində, təşkilatlarında rəhbər mövqelərə sahib olacaqlar. Azərbaycanda gənclər siyasətinin dövlətin əsas prioritetlərindən olduğunu deyən «İki sahil» qəzetinin baş redaktoru Vüqar Rəhimzadə BANM-in öndə gedən ali təhsil müəssisəsi olduğunu bildirərək Pakizə Paşayevanın məhz burada təhsil almasını yüksək dəyərləndirib.

Sonra "I can or Imust" layihəsinin qalibləri və iştrakçıları BANM və Binəqədi rayon Gənclər və İdman idarəsi tərəfindən sertifikat və medalla mükafatlandırılıblar.

Qeyd edək ki, "I can or I must" adlı layihə üç ay davam edib. Layihənin gedişatında gənclərə ingilis dilinin daha effektiv tədrisi məqsədilə müxtəlif maarifləndirici filmlər nümayiş etdirilib, həftədə 2 dəfə "conversation club"lar təşkil olunub.

İştirakçıların sözlərinə görə, Bakı Ali Neft Məktəbinin İngilis dili və humanitar fənlər mərkəzinin baş müəllimi Asif Qocayev layihənin uğurla həyata keçirilməsində böyük əmək sərf edib.

Binəqədi Rayon İcra Hakimiyyətinin
Sakinlərin Müraciət Xidməti





Sizin zənginiz bizim üçün çox əhəmiyyətlidir!

www.binegedi-ih.gov.az

# Azərbaycan gənc rəssamların gözü ilə...



Binəqədi rayonunda fəaliyyət göstərən Gənclər evində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi, Binəqədi Rayon Gənclər və İdman İdarəsi, YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə VIII qrant müsabiqəsinin qalibi Orxan Əlixanlının "Azərbaycan gənc rəssamların gözü ilə" adlı layihəsi çərçivəsində rəsm sərgisi keçirilib.

Tədbirdə çıxış edən O.Əlixanlı layihə haqqında ətraflı məlumat verərək, onun reallaşdırılmasında göstərdikləri köməyə görə aidiyyəti qurumlara təşəkkürünü bildirib. Ölkəmizin zəngin tarixi keçmişə, yeraltı və yerüstü təbii sərvətlərə, füsunkar təbiətə malik olduğunu vurğulayan layihə rəhbəri məhz bu gözəlliklərin diqqətə çatdırılması məqsədilə belə bir layihənin həyata keçirildiyini bildirib.

YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyinin sədri Mahmud Məmmədzadə layihənin gənclərin rəssamlıq sahəsində bacarıqlarının inkişaf etdirilməsinə töhfə verdiyini nəzərə çatdırıb, Gənclər Fondunun gənclərin fikir və ideyalarının gerçəkləşdirilməsi istiqamətində gördüyü işlərin böyük stimul yaratdığını qeyd edib.

Çıxışlardan sonra gənclər sərgidə nümayiş olunan rəsm əsərlərinə baxıb, çay süfrəsi ətrafında maraqlı diskussiya aparıblar. Sonda iştirakçılar diplom və sertifikatlarla təltif olunublar.

Qeyd edək ki, "Azərbaycan gənc rəssamların gözü ilə" adlı layihədə 50 nəfər gənc iştirak edib, onların çəkdikləri rəsm əsərləri Binəqədi rayonu Gənclər evinin sərgi qalereyasında nümayiş olunub.

# Gənclər şahmat birinciliyində

Binəqədi rayonu Gənclər evində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi, Gənclər və İdman İdarəsi və YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə VIII qrant müsabiqəsinin qalibi Aysel Ağayevanın "Qrossmeyster" layihəsi çərçivəsində gənclər arasında şahmat üzrə rayon birinciliyi keçirilib.

Tədbirdə çıxış edən nümayəndələr bildiriblər ki, layihənin keçirilməsində məqsəd gənclərin daha geniş kütləsinin intellektual fəaliyyətə, o cümlədən intellektual idman növü olan şahmata cəlb edilməsi, asudə vaxtın səmərəli təşkil olunmasıdır.

Sonra yarışın hakimi, Binəqədi rayonunda fəaliyyət göstərən 3 nömrəli Uşaq Gənclər Şahmat İdman Məktəbinin müəllimi Xalidə Həsənova iştirakçılara birinciliyin keçirilmə qaydalarını izah etdikdən sonra oyuna start verilib. 35 nəfərin iştirak etdiyi yarışın qaliblərinə kubok, medal və diplom təqdim olunub.





Layihənin açılış mərasimində Binəqədi Rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Rüfət Əhmədov, YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyinin sədri Mahmud Məmmədzadə və gənclər iştirak ediblər.

**E L A N**

Elnur Üzeyir oğlu Sərdarlıya verilmiş tələbə bileti itdiyi üçün **etibarsız sayılır.**